# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 427 Aprel 2023



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





# Hamlet İsaxanlı - 75










# Hamlet Isakhanli - 75



# İÇİNDƏKİLƏR

"Dünya" məktəbində görkəmli pedaqoq Nailəxanım İsayevanın anım günü ....6
Milli Elmlər Akademiyasında professor, akademik Hamlet İsaxanlı ilə görüş ....10
Professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyinə həsr olunmuş "Ziyarət" musiqili-poetik kompozisiya ....16
Bakı Yunus Əmrə İnstitutunun direktoru Xəzər Universitetində ....18
"Müasir elektronika və onun tətbiq sahələri" mövzusunda seminar ....19
"Narkomaniyaya qarşı mübarizə" mövzusunda maarifləndirici tədbir ....20
"ASE Logistika" şirkətinin təqdimatı ....22
"Khazar Journal of Humanities and Social Sciences" jurnalının yeni sayı çap olunub ....23
Sabancı Universitetinin professoru "Xəzər"də ....24
Xəzər Universitetində Elmi Jurnal Redaktorlarının I Avrasiya Forumu ....26
Abay Universiteti nümayəndələrinin professor, akademik Hamlet İsaxanlı ilə görüşü ....28
İngilis dili və ədəbiyyatı departamentinin müdiri Beynəlxalq Tədqiqatlar Günündə ekspert kimi çıxış etdi ....29
"Xəzər"in əməkdaşı Cabir Novruzun yubiley tədbirində ....30
MUSLİM institutunun əməkdaşı ilə görüş ....31
"Azerbaijan FIsh Farm" şirkətinin təqdimatı ....33
Beynəlxalq konqres: "Eko - memarlıq və dizayn perspektivləri" ....34
ECAR layihəsi çərçivəsində İsveç səfəri ....38
Bristol Universitetinin professoru Tariq Modood tərəfindən onlayn seminar ....40
San Antonio Katolik Universitetinin əməkdaşı "Xəzər"də ....42
"Xəzər" ölkə mediasında ....45
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ....46
Professor, akademik Hamlet İsaxanlının "Qarabağ və tarix" mövzusunda seminarı ....50
"Xəzər"in yeni nəşrləri ....53
Professor, akademik Hamlet İsaxanlı Türk Dünyası Milli Elmlər Akademiyaları İttifaqının Baş Assambleyasının VI iclasında ....54
Xəzər Universitetində Azərbaycan 7-ci Beynəlxalq Psixologiya Konfransı ....60
Meksika səfiri Maria Victoria Romero Caballero`nun "Xəzər"də seminarı ....64
Professor, akademik Hamlet İsaxanlı beynəlxalq konfransda ....65
"Elm və Sənət Məclisi"nin 77-ci məşğələsi ....66
PICASP layihəsi çərçivəsində "Arxeoloji irsin qorunmasının təşkili" mövzusunda seminar ....68
"Xəzər"in beynəlxalq əlaqələri ....72
**West Attica Universitetinin nümayəndələri "Xəzər"də ....76**

**1995-ci ilin yanvarından nəşr olunur**

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

**Ünvan:**
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində** mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS


**"Dunya" School Holds Memorial Day of Outstanding Educator Nailekhanim Isayeva** ..6
Meeting with Professor, Academician Hamlet Isakhanli at National Academy of Sciences .......10
Musical-Poetic Composition "Oilgrimage" Dedicated to the 75th Anniversary of Professor, Academician Hamlet Isakhanli..........16
Director of Baku Yunus Emre Institute at Khazar University ..........18
Seminar on "Modern Electronics and its Fields of Application"..........19
Educational Event on "Fight Against Drug Addiction"..........20
Presentation of "ASE Logistics" Company..........22
The New and Special Issue of "Khazar Journal of Humanities and Social Sciences" Published..........23
Sabancı University Professor at Khazar University..........24
The 1st Eurasian Forum of Scientific Journal Editors at Khazar University ..........26
Meeting of Abai University Representatives with Professor, Academician Hamlet Isakhanli ....28
Head of English Language and Literature Department as a Resource Person at the International Research Day ..........29
Khazar University Employee at Jabir Novruz's Jubilee Event..........30
Meeting With the Employee of MUSLIM Institute ..........31
Presentation of "Azerbaijan Fish Farm" Company ..........33
"Eco Archıtecture and Desıgn Perspectıves "Congress..........34
Visit to Sweden Within ECAR Project..........38
Online Seminar by Professor Tariq Modood, University of Bristol..........40
Staff Member of San Antonio Catholic University at Khazar University ..........42
"Khazar" ın Country`s Medıa ..........45
News of the Institute of ANAS Named After Nizami (in Azerbaijani)..........46
Professor, Academician Hamlet Isakhanli's Seminar on "Karabakh and History" ..........50
New Publications of "Khazar"..........53
Professor, Academician Hamlet Isakhanli at the VI meeting of General Assembly of the Union of National Sciences Academies of the Turkic World ..........54
The 7th Azerbaijan International Psychology Conference at Khazar University..........60
Mexican Ambassador Maria Victoria Romero Caballero`s seminar at Khazar University..........64
Professor, Academician Hamlet Isakhanli at the International Conference..........65
The 77th Session of the Assembly of Science and Art ..........66
Seminar on " Organization of Archaeological Heritage Protection" within PICASP project.......68
"Khazar"s International Relation ..........72
Representatives of West Attica University at Khazar University ..........76



It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



# "DÜNYA" MƏKTƏBİNDƏ GÖRKƏMLİ PEDAQOQ NAİLƏXANIM İSAYEVANIN ANIM GÜNÜ

# "DUNYA" SCHOOL HOLDS MEMORIAL DAY OF OUTSTANDING EDUCATOR NAILEKHANIM ISAYEVA

Aprelin 3-də "Dünya" məktəbinin qurucu direktoru olnuş, görkəmli pedaqoq Nailəxanım İsayevanın anım günü keçirildi.

"Dünya" məktəbində yerləşən Nailəxanım Muzeyində keçirilən tədbirdə "Dünya" məktəbinin rəhbərliyi və müəllimləri, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, Şuranın üzvü və müşaviri Aygün Gardiner, universitetin rəhbərliyi və əməkdaşları, qonaqlar iştirak edirdilər.

*(Ardı səh.8-də)*

On April 3, the memorial day of Nailekhanim Isayeva, the founding director of the "Dunya" school and an outstanding educator, was held.

The administration and teachers of the "Dunya" school, the founder of Khazar University, the chairman of its Board of Directors and Trustees professor, academician Hamlet Isakhanli, the member and advisor of the Council Aygun Gardiner, the administration and employees of the university, guests took part in the event held at the Nailekhanim Museum in the "Dunya" school.

*(To be continued page 9)*



*Mərufə Mədətli*
*Marufa Madatli*





*Hamlet İsaxanlı* *Hamlet Isakhanli*



*Xəzər Universitetinin əməkdaşı Lyudmila Sotova, "Dünya" kompleksinin direktoru Nazpəri Bayramova, Aygün Gardiner*

*Khazar University staff member Lyudmila Sotova, director of "Dunya" complex Nazperi Bayramova, Aygun Gardiner*



*Firəngiz Nəsirova* *Firangiz Nasirova*



*"Dünya" məktəbinin əməkdaşı Afaq Qəmbərova*
*Staff member of "Dunya" school Afag Gambarova*

Tədbirdə məktəbin Azərbaycan və rus bölmələrinin təhsil işləri üzrə direktoru Mərufə Mədətli, Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimləri Firəngiz Nəsirova, Lidiya Həmidova, Xalq artisti, tanınmış pianoçu professor Yeganə Axundova, "Loqos" Psixoloji və Nitq İnkişaf Mərkəzinin baş psixoloqu Elmira Mirzəyeva çıxış edərək, Nailəxanım İsayevanın yüksək peşəkar təhsil işçisi və müəllim, sadə, ədalətli rəhbər, insanları sevən, onlara xeyirxahlıq, qayğı ilə yanaşan bir insan olduğunu vurğuladılar, onun həm də musiqiçi, bəstəkarlıq fəaliyyətindən söz açdılar.

Tədbirdə Nailəxanım İsayevanın Hamlet İsaxanlının sözlərinə bəstələdiyi mahnılar ifa olundu. Yeganə Axundova pianoda "İnciçiçəyi", "Dünya" məktəbinin musiqi müəllimi Ceyla Həsənova "Külək və qız", Xəzər Universitetinin Kamera orkestri "Gözəldir", "Tez Gəlin" mahnılarını səsləndirdilər.



*Yeganə Axundova*
*Yegane Akhundova*



*Elmira Mirzəyeva*
*Elmira Mirzayeva*



Marufa Madatli, director of Educational Affairs of the Azerbaijani and Russian sections of the school, Firangiz Nasirova, Lidiya Hamidova, head teachers of Khazar University English Language and Literature Department, Professor People's Artist, well-known pianist Yegane Akhundova, chief psychologist of "Logos" Psychological and Speech Development Center Elmira Mirzayeva, spoke at the event and They emphasized that Nailkhanim Isayeva was a highly professional pedagogue, a sincere, fair leader, a person who loved people, treated them with kindness and care, and also talked about her activities as musician and composer.

At the event, the songs composed by Nailekhanim Isayeva to the words of Hamlet Isakhanli were performed. Yegane Akhundova played "Incichicheyi" ("Lily of the valley") on the piano and

"Kulek va giz ("Wind and Girl") was played by Jeyla Hasanova, music teacher of "Dunya" school. Khazar University Chamber Orchestra performed "Gozeldir" ("It's beautiful"), "Tez Gelin" ("Come soon").



*Lidiya Həmidova*
*Lidiya Hamidova*

# MİLLİ ELMLƏR AKADEMİYASINDA PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI İLƏ GÖRÜŞ

# MEETING WITH PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT NATIONAL ACADEMY OF SCIENCES



*Sərgiyə baxış*

*Review of the exhibition*

Aprelin 19-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri,

On April 19, a meeting was held with Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees,






*Hamlet İsaxanlı* *Hamlet Isakhanli* *İsa Həbibbəyli* *Isa Habibbayli*

ictimai xadim, görkəmli riyaziyyatşı alim, şair, yazıçı, tərcüməçi, publisist, son əsrlərin dünyaca təsdiq olunmuş azsaylı çoxbilgin (polimat) şəxsiyyətlərindən biri professor, akademik Hamlet İsaxanlı ilə 75 illik yubileyi münasibətilə görüş keçirildi. AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) keçirilən tədbirdə AMEA və Xəzər Universitetinin

*(Ardı səh.12-də)*

public figure, outstanding mathematician, poet, writer, translator, publicist, one of the few globally recognized polymaths of the last centuries, at the Azerbaijan National Academy of Sciences (ANAS) on the occasion of his 75th anniversary. Administration and employees of ANAS and Khazar University, scientists, and

*(To be continued page 12)*



*Məmməd Əliyev*
*Mammad Aliyev*



*İlham Məmmədzadə*
*Ilham Mammadzade*

rəhbərliyi və əməkdaşları, elm xadimləri, media nümayəndələri iştirak ediblər.

Öncə Hamlet İsaxanlının MEK-ə hədiyyə etdiyi - özünün müəllifi olduğu, həmçinin şəxsi kitabxanasından elmin müxtəlif sahələrini əhatə edən, Azərbaycan və xarici dillərdə çap olunan çoxsaylı nəşrlərdən ibarət sərgiyə baxış keçirilib. Sərgi MEK



*Eynulla Mədətli*
*Eynulla Madatli*

və Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzi (KİM) tərəfindən hazırlanmışdı.

Tədbiri giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı Azərbaycanın müstəqillik illərinin idealları, imkanları əsasında formalaşmış görkəmli Azərbaycan ziyalısıdır. Akademik Hamlet İsaxanlını 2021-ci ildə Gürcüstan Respublikası Elmlər Akademiyasının həqiqi (xarici) üzvü seçilməyi münasibətilə geniş ictimaiyyətin qarşısında bir daha təbrik edərək, bu hadisənin ziyalılar üçün, ölkə üçün əhəmiyyətini vurğulayıb.

Alimin pedaqoji fəaliyyətinə də toxunan akademik İsa Həbibbəyli Azərbaycan Riyaziyyatçılar Cəmiyyəti içərisində Hamlet İsaxanlının çoxcəhətli fəaliyyəti ilə özünəməxsus ciddi bir yeri olduğunu diqqətə çatdırıb. AMEA-nın rəhbəri bildirib ki, dəqiq və humanitar elmlər arasında bir körpü

media representatives took part in the event held at the Central Scientific Library (CSL) of ANAS.

First, an exhibition of numerous publications in Azerbaijani and foreign languages covering various fields of Science from Hamlet Isakhanli's personal library, as well as books authored by him and presented to the CSL, was reviewed. The exhibition was prepared by CSL and Khazar University Library Information Center (LIC).

Academician Isa Habibbayli, president of ANAS, who opened the event with his opening speech, said that founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Doctor of Physics and Mathematics, Professor, Academician Hamlet Isakhanli is an outstanding Azerbaijani intellectual who was formed on the basis of the ideals and opportunities of Azerbaijan's independence years. Congratulating academician Hamlet Isakhanli once again publicly on the occasion of his election as a full (foreign) member of the Academy of Sciences of the Republic of Georgia in 2021, he emphasized the importance of this event for intellectuals and for the country.

Referring to the pedagogical activity of the scientist, academician Isa Habibbayli brought to the attention that Hamlet Isakhanli has a serious place among the Society of Mathematicians



*Bədirxan Əhmədov*
*Badirkhan Ahmadov*

olacaq, hər iki tərəfə xidmət edə biləcək çox az sayda insanlar var. "Onlardan biri də ölkəmizdə məhz Hamlet İsaxanlıdır. Onun müəllifi olduğu "Əlkimya: Elm, Sənət və Mistika" əsəri də ölkəmizdə təbiət ilə humanitar elmlərinin qarşılıqlı əlaqəsi, münasibəti məsələlərini elmi səviyyədə əks etdirən fundamental monoqrafik tədqiqatdır. Bu barədə birinci, təməl kitabı, təxminən yarım əsr bundan əvvəl Akademiyanın müxbir üzvü, mərhum Xudu Məmmədov yazıb. Onun "Qoşa qanad" kitabı da elmlə sənətin vəhdətini təşkil edib. Bundan əlavə, Hamlet İsaxanlı, ciddi bir tədqiqatçı olaraq nizamişünaslığa, orta əsr Azərbaycan ədəbiyyatının öyrənilməsinə böyük xidmət göstərib, üfüq açıb və əsaslandırıb" - deyə, Akademiyanın rəhbəri diqqətə çatdırıb.

Xəzər Universitetini professor Hamlet İsaxanlının şah əsəri kimi səciyyələndirən akademik İsa Həbibbəyli bildirib ki, bu universitet ölkəmizi dünyada istər layihələri, istərsə də təhsili ilə tanıdan bir neçə qabaqcıl təhsil ocaqlarından biridir.

Sonra çıxış edən MEK-in baş direktoru, professor Məmməd Əliyev professor Hamlet İsaxanlı tərəfindən kitabxanaya tədqim edilən və müxtəlif elm sahələrini əhatə edən dəyərli nəşrlərin fondlarda xüsusi əhəmiyyət kəsb edəcəyini və gələcəkdə bu nəşlərdən ibarət alimin şəxsi kitab kolleksiyasının yaradılacağını da vurğulayıb. Baş direktor, həmçinin

of Azerbaijan with his multifaceted activities. The head of ANAS said that there are very few people who can be a bridge between exact and humanitarian sciences, who can serve both sides. "One of them is Hamlet Isakhanli in our country. The work "Alchemy: Science, Art and Mysticism" authored by him is a fundamental monographic study reflecting the issues of interaction and relationship between nature and humanities in our country at a scientific level. The first, fundamental book about this was written by the late Khudu Mammadov, corresponding member of the Academy, about half a century ago. His book "Double Wing" also united science and art. In addition, Hamlet Isakhanli, as a serious researcher, rendered a great service to systematic studies and the study of medieval Azerbaijani literature, he opened a horizon and justified it," the head of the Academy pointed out.

Academician Isa Habibbayli, characterizing Khazar University as the masterpiece of Professor Hamlet Isakhanli, said that this university is one of the few leading educational institutions that have made our country known in the world, either by its projects or by its education.

Director General of CSL, professor Mammad Aliyev also emphasized in his speech that the va-



*Xəzər Universiteti KİM-in İnformasiya xidmətləri bölməsinin müdiri Samirə Orucova, direktor müavini Aytac Misgərli, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dilbər Zeynalova*
*Head of the Information Services Department of Khazar University LIC Samira Orujova, deputy director Aytaj Misgerli, head of the Languages and Literatures Department Dilber Zeynalova*



alimin elmi və ədəbi fəaliyyətinə toxunub.

Görüşdə AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun baş direktoru, professor İlham Məmmədzadə, institutun icraçı direktoru, tarix elmləri doktoru Eynulla Mədətli, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Asiya xalqları ədəbiyyatı şöbəsinin müdiri professor Bədirxan Əhmədov, Xəzər Universitetinin rektoru, dosent İradə Xəlilova çıxış edərək, Hamlet İsaxanlının yaradıcılığı barədə fikirlərini bölüşüblər, ona gələcək fəaliyyətində uğurlar arzu-

luable publications presented to the library by professor Hamlet Isakhanli and covering various fields of science will be of special importance in the funds, and in the future a personal book collection of the scientist will be created consisting of these publications. The general director also touched upon the scientist's scientific and literary activity.

Director General of the Institute of Philosophy



*Xəzər Universitetinin müəllimləri: Firəngiz Nəsirova, Kəmalə Mahmudova, Roza Arazova*
*Khazar University faculty members: Firangiz Nasirova, Kamala Mahmudova, Roza Arazova*

layıblar. Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Dilbər Zeynalova H.İsaxanlının müəllifi olduğu "Dalğalarla yan - yana" şeirini səsləndirib.

Sonda çıxış edən professor H. İsaxanlı tədbirin təşkilində əməyi keçənlərə, o cümlədən AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə və MEK-in baş direktoru, professor Məmməd Əliyevə xüsusi təşəkkürünü bildirərək, kitabın və kitabxananın cəmiyyətin inkişafındakı rolundan bəhs edib. Alim, həmçinin tədbir iştirakçılarının suallarını cavablandırıb.

Sonda hədiyyələr təqdim olunub və xatirə şəkilləri çəkilib.



and Sociology of ANAS, professor Ilham Mammadzade, executive director of the Institute, Doctor of Historical Sciences Eynulla Madatli, head of the Department of Asian peoples literature of the Institute of Literature named after Nizami of ANAS, Professor Badirkhan Ahmadov, rector of Khazar University, Associate Professor Irada Khalilova shared their views on Hamlet Isakhanli's creativity and wished him success in his future activities. The head of the Department of Languages and Literatures of Khazar University, Associate Professor Dilbar Zeynalova, recited the poem "Side by side with waves" written by H. Isakhanli.



*İradə Xəlilova* *Irada Khalilova*

Speaking at the end, professor H.Isakhanli expressed his gratitude to those who contributed to the organization of the event, including academician Isa Habibbayli, president of ANAS and general director of CSL, Professor Mammad Aliyev, and spoke about the role of the book and library in the development of society. The scientist also answered the questions of the participants of the event.

At the end, gifts were exchanged and memory photos were taken.




*Cavanşir Quliyev   Javanshir Guliyev*

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ 75 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ "ZİYARƏT" MUSİQİLİ-POETİK KOMPOZİSİYA

# MUSICAL-POETIC COMPOSITION "PILGRIMAGE" DEDICATED TO THE 75TH ANNIVERSARY OF PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

Aprelin 26-da Xəzər Universitetinin Mərmər salonunda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlının 75 illik yubileyi münasibətilə Əməkdar incəsənət xadimi, görkəmli bəstəkar, Xəzər Universitetinin professoru Cavanşir Quliyevin müəllifi olduğu "Ziyarət" musiqili-poetik kompozisiya nümayiş etdirildi. Musiqili-poetik kompozisiya şair H. İsaxanlının oxucular və ədəbi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanan, Gürcüstandakı ata yurdu doğma Kosalı kəndinə səfərinin təəssüratlarını əks etdirən "Ziyarət" poeması əsasında hazırlanmışdır.

Poemadan təsirlənən bəstəkar Cavanşir Quliyev ondan artıq şeir parçası seçmiş və onlara mahnı bəstələmişdir.

Xəzər Universitetinin rəhbərliyi və əməkdaşlarının, qonaqların iştirak etdiyi tədbiri Cavanşir Quliyev açaraq, musiqili-poetik kompozisiyanın H. İsaxanlının yubileyinə bir musiqili-söz çələngi olduğunu söylədi,

On April 26, a musical-poetic composition "Pilgrimage" authored by Javanshir Guliyev, an honored artist, prominent composer, professor of Khazar University, was performed on the occasion of the 75th anniversary of the founder of the university, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isaxanli in the Marble Hall of Khazar university. The musical-poetic composition was made on the basis of poet H. Isakhanli 's poem "Pilgrimage", which reflects the impressions of his visit to his native village of Kosali, his ancestral home in Georgia, which was met with great interest by readers and the literary community. Influenced by the poem, the composer Javanshir Guliyev selected more than ten pieces of poetry and composed songs for them.

Javanshir Guliyev opened the event attended by Khazar University's administration and staff, guests, and said that the musical-poetic composition is a musical-word wreath for the anniversary of H. Isak-





*Lalə Məmmədova      Lala Mammadova*

yaradıcılıq prosesindən danışdı və iştirakçıları əsəri dinləməyə dəvət etdi.

Kompozisiyadakı şeirlər son illərdə H. İsaxanlının poetik yaradıcılığına ardıcıl müraciət edən görkəmli bədii qiraətçi Kamran M. Yunus, mahnılar əməkdar artist Lalə Məmmədova tərəfindən ifa olundu.

Cavanşir Quliyev söz alaraq, yubilyar üçün daha bir mahnı hədiyyəsi hazırladığını söylədi və H. İsaxanlının "Gedin deyin anama" şeirinə bəstələdiyi mahnını ilk dəfə özünün pianoda müşayiəti ilə özü ifa etdi.

Sonda H.İsaxanlı çıxış edərək, musiqili-poetik kompozisiyanın yüksək səviyyədə hazırlanması və ifasına görə təşəkkürünü bildirdi.

hanli, spoke about the creative process and invited the participants to listen to the piece.

The poems in the composition were performed by Kamran M. Yunus, an outstanding artistic reciter who has repeatedly addressed H. Isakhanli's poetic creativity in recent years, and the songs were performed by the honored artist Lala Mammadova.

Taking the floor, Javanshir Guliyev said that he had prepared another song gift for the anniversary and performed the song composed by H. Isakhanli's poem "Go and tell my mother" for the first time accompanied by him on the piano.

In the end, H. Isakhanli gave a speech and expressed his gratitude for the high level of preparation and



*Kamran M. Yunus*



# BAKI YUNUS ƏMRƏ İNSTİTUTUNUN DİREKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

# DIRECTOR OF BAKU YUNUS EMRE INSTITUTE AT KHAZAR UNIVERSITY



*Selçuk Karakılıç*
*Selchuk Karakılıch*



Martın 15-də Bakı Yunus Əmrə İnstitutunun direktoru Selçuk Karakılıç Xəzər Universitetində müəllimlər və Humanitar, təhsil və sosial elmlər fakültəsinin bir qrup tələbəsi ilə görüşdü.

Görüşü fakültənin dekanı dosent Elza Səmədli açaraq, qonağı təqdim etdi. S. Karakılıç Yunus Əmrə İnstitutunun Bakıdakı fəaliyyəti haqqında məlumat verərək bildirdi ki, institut təhsil və tədrislə yanaşı, türk mədəniyyətinin, tarixinin, dilinin və ədəbiyyatının daha yaxşı təbliği və öyrədilməsi məqsədi ilə tədqiqatlar aparmaq, fərqli təşkilatlarla əməkdaşlıq edərək elmi işləri dəstəkləmək və əldə edilən nəticələri ictimaiyyətə çatdırmaq üçün müxtəlif tədbirlər həyata keçirir. O, institutun Xəzər Universiteti və daha bir neçə ali təhsil müəssisəsi ilə əməkdaşlıq etdiyini söylədi. Sonra Türkiyə universitetləri ilə əlaqələrin əhəmiyyəti və yeni imkanlar haqqında da müzakirələr aparıldı, maraqlı təkliflər və layihələr irəli sürüldü.

Sonda Bakı təəssüratlarını iştirakçılarla bölüşən S. Karakılıç tələbə və müəllim heyətinə institutun hədiyyələrini təqdim etdi.

On March 15, Director of Baku Yunus Amre Institute Selchuk Karakılıch met with faculty members and a group of students of the School of Humanities, Education and Social Sciences at Khazar University.

The meeting was opened by the dean of the faculty, associate professor Elza Samadli, who introduced the guest. S. Karakılıch informed about the activities of the Yunus Emre Institute in Baku and stated that the institute, in addition to education and teaching, conducts research for the purpose of better promotion and teaching of Turkish culture, history, language and literature, cooperates with different organizations to support scientific work and performs various activities to convey the obtained results to the public. He said that the institute cooperates with Khazar University and several other higher education institutions. Then the importance of relations with Turkish universities and new opportunities were discussed, and interesting proposals and projects were put forward.

At the end, S.Karakılıch, who shared his impressions of Baku with the participants, presented the gifts of the institute to the students and teaching staff.



*İlkin Nəsirli   Ilkin Nasirli*

## SEMINAR ON "MODERN ELECTRONICS AND ITS FIELDS OF APPLICATION"

On March 16, a seminar on " Modern electronics and its fields of application " was held by Ilkin Nasirli, co-founder of "Technolab" LLC, in the Department of Physics and Electronics of the School of Science and Engineering. The seminar was held in the form of a discussion with students, the issues of application of electronics to various fields were touched upon.

## "MÜASİR ELEKTRONİKA VƏ ONUN TƏTBİQ SAHƏLƏRİ" MÖVZUSUNDA SEMİNAR

Martın 16-da Təbiət elmləri və mühəndislik fakültəsinin Fizika və elektronika departamentində "Texnolab" MMC - nin həmtəsisçisi İlkin Nəsirli tərəfindən "Müasir elektronika və onun tətbiq sahələri" mövzusunda seminar keçirildi. Seminar tələbələrlə müzakirə şəklində aparıldı, elektronikanın müxtəlif sahələrə tətbiqi məsələlərinə toxunuldu.





# "NARKOMANİYAYA QARŞI MÜBARİZƏ" MÖVZUSUNDA MAARİFLƏNDİRİCİ TƏDBİR

# EDUCATIONAL EVENT ON "FIGHT AGAINST DRUG ADDICTION"






*Baba Bayramlı Baba Bayramli*

Martın 16-da Xəzər Universitetində Nizami Rayon Polis İdarəsi (RPİ) tələbələr üçün "Narkomaniyaya qarşı mübarizə" mövzusunda maarifləndirici tədbir keçirdi.

Tədbirdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Nizami RPİ-nin rəisi polis polkovniki Ziya Əliyev, rəis müavini polis polkovnik-leytenantı Zaur İsayev, Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi polis mayoru Natiq Yusifov, baş inspektoru polis kapitanı Günel Mirzəyeva, Nizami RPİ Veteranlar Şurasının sədri Nazim Knyazov, Nizami RPİ Ağsaqqallar Şurasının sədri Firdovsi Bayramov və digərləri iştirak edirdilər.

Xəzər Universitetinin müəllimi Baba Bayramlı tədbiri giriş sözü ilə açaraq, narkomaniya ilə mübarizənin vacibliyini vurğuladı və qonaqları təqdim etdi.

Rektor İradə Xəlilova günümüzün bəlasına çevrilən narkomaniyadan, tələbələrin bu sahədə maariflənməsinin əhəmiyyətindən danışdı.

Sonra söz Nizami RPİ-nin rəisinə və əməkdaşlarına verildi. Narkomaniya və onun fəsadları haqqında tələbələrə ətraflı məlumat verildi, bundan qorunmanın yolları göstərildi.

Sonda Nizami RPİ-nin əməkdaşları tələbələrin suallarını cavablandıraraq, onları maraqlandıran məsələləri izah etdilər.

On March 16, the Nizami District Police Department held an educational event for students on the topic of "Fight against drug addiction" at Khazar University.

The rector of Khazar University, associate professor Irada Khalilova, vice-rector for Administration and Student Affairs Isakhan Isakhanli, chief of Nizami District Police Department Colonel Ziya Aliyev, deputy chief of Police Lieutenant Colonel Zaur Isayev, chief of the Division of Preventive Work with Minors Major Natig Yusifov, chief Inspector Police Captain Gunel Mirzayeva, chairman of the Veterans Council of Nizami District Police Department Nazim Knyazov, chair of Elders Council of Nizami District Police Department Firdovsi Bayramov and others attended the event.

Khazar University faculty member Baba Bayramli opened the event with an introductory speech, emphasized the importance of fighting drug addiction and introduced the guests.

Rector Irada Khalilova spoke about drug addiction, which has become a scourge today, and the importance of educating students in this field.

Then the floor was given to the chief and employees of the Nizami District Police Department. Students were given detailed information about drug addiction and its consequences, and ways to prevent it were shown. In the end, employees of the Nizami District Police Department answered the students' questions and explained the issues that interested them.





*Ziya Əliyev Ziya Aliyev*



*Günel Mirzəyeva Gunel Mirzayeva*



*Firdovsi Bayramov*





# "ASE LOGISTIKA" ŞİRKƏTİNİN TƏQDİMATI

Martın 16-da Karyera Mərkəzinin təşkil etdiyi tədbirdə "ASE Logistika" şirkətinin direktor assistenti Tural Məmmədov çıxış etdi. O, "ASE Logistika" şirkətinin ümumi iş prosesi barədə və öz startup layihələri haqqında geniş danışaraq, tələbələri məlumatlandırdı.

Görüş sonrası tələbələrin şirkət nümayəndəsi ilə sual-cavab sessiayası baş tutdu.

# PRESENTATION OF "ASE LOGISTICS" COMPANY



On March 16, Tural Mammadov, assistant director of "ASE Logistics " company, spoke at the event organized by the Career Center. He informed the students about the general business process of "ASE Logistics" company and about his start-up projects.

After the meeting, a question-and-answer session was held with the company representa





## "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" JURNALININ YENİ SAYI ÇAP OLUNUB




"Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalının "Sosial, təhsil və iqtisadi inkişafı təmin etmək üçün innovativ texnologiyalar" adlı yeni və xüsusi nömrəsi (Cild, 26, 1, 2023) çap olunmuşdur. Bu xüsusi nömrədə ukraynalı müəlliflər tərəfindən dil, media, informasiya texnologiyaları, idarəetmə və digər sahələrdə araşdırma məqalələri nəşr olunub. Xüsusi nömrənin redaktorları Hamlet İsaxanlı (Azərbaycan) və Buryk Myroslav`dır (Ukrayna). Məqalələr ilə burada tanış ola bilərsiniz: https://ejournal.khazar.org//

Sizi "Khazar Journal of Humanities and Social Sciences" jurnalını oxumağa, öz elmi nəşrlərinizdə onun məqalələrindən sitatlar verməyə və çap etdirmək üçün keyfiyyətli və orijinal məqalələrinizi bizə göndərməyə dəvət edirik (hazırda üstünlük verilən sahələr: təhsil, dil, ədəbiyyat, beynəlxalq münasibətlər və siyasi elmlər).

Daha ətraflı məlumat üçün: *https://ejournal.khazar.org//*

## THE NEW AND SPECIAL ISSUE OF "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" PUBLISHED

The new Special Issue of "Khazar Journal of Humanities and Social Sciences" (Vol. 26. Special Issue No. 1. 2023) entitled "Innovative technologies for ensuring social, educational and economic development" has been released. In this Special Issue, authors from Ukraine published research articles about Language, Media, Information technologies, Management, etc. The editors of this Special Issue are Hamlet Isakhanli (Azerbaijan) and Buryk Myroslav (Ukraine). You can read the full articles here: https://ejournal.khazar.org//

We encourage you to read KJHSS, cite from its publications, and submit your original and high-quality research papers for publication (the priority fields, for now, are Education, Language, Literature, IR & Political Science).

For more information about submission, please, see: *https://ejournal.khazar.org//*




*Ahmet Demirelli*

# SABANCI UNİVERSİTETİNİN PROFESSORU "XƏZƏR"DƏ

# SABANCI UNIVERSITY PROFESSOR AT KHAZAR UNIVERSITY

Martın 13-17-də Türkiyənin İstanbul şəhərində yerləşən Sabancı Universitetinin professoru Ahmet Demirelli Erasmus+ İşçi heyətinin Mübadilə Proqramı (Teaching Mobility) çərçivəsində Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva və Beynəlxalq əlaqələr ofisinin kordinatoru Fatimə Vəliyeva tərəfindən qəbul edildi.

Proqramın ilk günü fakültə və ofisin əməkdaşları ilə tanışlıq görüşü keçirildi.

Proqram ərzində Kompüter elmləri departamentinin koordinatoru Cavad Mehri qonağı departamentin fəaliyyəti ilə yaxından tanış etdi. Ahmet Demirelli "Obyekt yönümlü proqram təminatının dizaynı və proqramlaşdırması"; "Korporativ proqram arxitekturası"; "Böyük verilənlər"; "Bulud texnologiyası" ("Object Oriented Software Design and Programming"; "Enteprise Software Architectures"; "Big Data"; "Cloud

On March 13-17, Professor Ahmet Demirelli of Sabanci University in Istanbul, Türkiye was received by the dean of the School of Science and Engineering Fakhranda Afandiyeva and the coordinator of International Relations Office of Khazar University Fatima Veliyeva as part of the Erasmus+ staff Exchange Program (Teaching Mobility).

On the first day of the program, an introductory meeting was held with the faculty and office staff.

During the program, the coordinator of the Department of Computer Science, Javad Mehri, introduced the guest closely to the activities of the department. Ahmet Demirelli delivered a lecture to students on "Object Oriented Software Design and Programming"; "Enterprise Software Architectures"; "Big Data"; "Cloud Technologies".

According to the program, Aytac Misgarli, the deputy director of the university's Libra-

Technologies") mövzularında tələbələrə mühazirə oxudu.

Proqrama uyğun olaraq universitetin Kitabxana İnformasiya Mərkəzində direktor müavini Aytac Misgərli professora mərkəzin fəaliyyəti haqqında məlumat verdi. Nailəxanım Mədəniyyət Mərkəzində o, Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış oldu. Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar qonağı departament və Nanotexnologiya laboratoriyasının fəaliyyəti ilə tanış etdi.

Proqramın sonunda Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva tərəfindən Ahmet Demirelli`yə sertifikat təqdim olundu..




*Aytac Misgərli* *Fatimə Vəliyeva*
*Aytac Misgarli* *Fatima Veliyeva*

ry Information Center, informed the professor about the activities of the center. In the Nailekhanim Culture Center, he got acquainted with the exhibits reflecting the life and activities of Nailekhanim Isayeva. The head of the Physics and Electronics department, Farida Tatardar, introduced the guest to the activities of the department and the Nanotechnology laboratory.

At the end of the program, the dean of the School of Science and Engineering, Fakhranda Efendiyeva, presented a certificate to Ahmet Demirelli.





*Fəxrəndə Əfəndiyeva*
*Fakhranda Afandiyeva*

## XƏZƏR UNİVERSİTETİNDƏ ELMİ JURNAL REDAKTORLARININ I AVRASİYA FORUMU

Martın 16-17-də Abay adına Qazax Milli Pedaqoji Universiteti (Abay Universiteti), Xəzər Universiteti və Qazaxıstan Texnologiya və Biznes Universitetinin təşəbbüsü ilə Xəzər Universitetində Elmi Jurnal Redaktorlarının "Şərq-Qərb: Səlahiyyət və Potensial" mövzusunda I Avrasiya Forumu keçirildi. Forum Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Sahəsində Keyfiyyətin Təminatı Komitəsi, Azərbaycan Dövlət Pedaqoji Universiteti və "Akbastau Gardens" MMC-nin dəstəyi ilə təşkil olunub.

Forumun qonaqları Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və rektor dosent İradə Xəlilova, Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Sahəsində Keyfiyyətin Təminatı Komitəsinin sədr müavini Adiljan Nurjanov, Abay Universitetinin Elmi Nəşrlər Mərkəzinin rəhbəri Dr. Talqatlı Kibayev tərəfindən qarşılandı.

Foruma Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və Abay Universi-

## THE 1ST EURASIAN FORUM OF SCIENTIFIC JOURNAL EDITORS AT KHAZAR UNIVERSITY

On March 16-17, the 1st Eurasian Forum of Scientific Journal Editors "East-West: Authority and Potential" was held in Baku at the initiative of Abay Kazakh National Pedagogical University (Abay University), Khazar University and Kazakhstan University of Technology and Business. The forum was organized with the support of the Committee for Quality Assurance in the Field of Science and Higher Education of the Republic of Kazakhstan, Azerbaijan State Pedagogical University and "Akbastau Gardens" LLC.

The guests of the forum were welcomed by the founder of Khazar University, the chairman of the board of directors and trustees, professor, academician Hamlet Isakhanli and the rector, associate professor Irada Khalilova, deputy chairman of the Committee for Quality Assurance in Science and Higher Education of the Republic of Kazakhstan Adiljan Nurjanov, head of the Center for Scientific Publications of Abay University, Dr. Talgatli Kibayev.

The forum was moderated by Vlad Vernygora, Khazar University's vice-rector for international relations, and Saule Isaliyeva, technical secretary of Abay



tetinin "Pedaqogika və psixologiya" elmi-metodiki jurnalının texniki katibi Saule İsaliyeva moderatorluq etdilər.

Forum Azərbaycan, Qazaxıstan, Estoniya, Türkiyə, İtaliya, Tailand, Özbəkistan və Polşadan nəşriyyatların, elmi jurnalların nümayəndələri, tədqiqatçılar, müəllimlər və universitet tələbələrinin iştirakı ilə keçdi. Dr. İldana Xalitova (Abay Universiteti, Qazaxıstan), Krystian Stefanski (Polşa), professor Tanel Kerikmäe (Tallinn Texnologiya Universiteti, Estoniya), dosent Orxan Vəliyev (Xəzər Humanitar və Sosial Elmlər Jurnalı, Xəzər Universiteti, Azərbaycan), Vlad Vernygora (Xəzər Universiteti, Azərbaycan) panel bölməsində təqdimatlarla çıxış etdilər.

Forum çərçivəsində "Bilim zhane Bolashak" Birinci Beynəlxalq Araşdırma Müsabiqəsinin nəticələrinə yekun vuruldu, qaliblər "Zhana İzdenister" elmi layihələr müsabiqəsində tədqiqat layihələri təqdim ediblər. "Sciendo" (De Gruyter) nəşriyyatının nümayəndələri şirkətin tarixi, jurnalları və yüksək keyfiyyətli akademik məqalələrin nəşri üçün ilkin şərtlər haqqında danışıblar.

Forumda Qazaxıstan-Azərbaycan "Magistr və PhD tələbələri üçün "Şərq-Qərb" elmi-metodiki jurnalı"nın təqdimatı oldu. Onlayn və oflayn formatlarda iştirakçılar yüksək reytinqli jurnallarda elmi məqalələrin dərci, Avrasiya Elmi Jurnallar Assosiasiyasının yaradılması, müxtəlif ölkələrdən olan bakalavr və doktorantlar arasında qarşılıqlı əlaqə üçün vahid peşəkar platformanın formalaşdırılmasının zəruriliyi, elmi məqalələrin yazılması məsələlərini müzakirə ediblər.

University's "Pedagogy and Psychology" scientific-methodical journal.

The forum was attended by representatives of publishers, scientific journals, researchers, teachers and university students from Azerbaijan, Kazakhstan, Estonia, Turkey, Italy, Thailand, Uzbekistan and Poland. Dr. Ildana Khalitova (Abay University, Kazakhstan), Krystian Stefanski (Poland), Professor Tanel Kerikmäe (Tallinn University of Technology, Estonia), Associate Professor Orkhan Valiyev (Khazar Journal of Humanities and Social Sciences, Khaz University, Azerbaijan), Vlad Vernygora (Khazar University, Azerbaijan ) made presentations in the panel section.

Within the framework of the forum, the results of the First International Research Competition "Bilim zhane Bolashak" were concluded, the winners presented research projects at the "Zhana Izdenister" scientific projects competition. The representatives of the publishing house "Sciendo" (De Gruyter) talked about the history of the company, its journals and the prerequisites for publishing high-quality academic articles.

Finally, Kazakhstan-Azerbaijan "East-West" scientific-methodical journal for Master and PhD students was presented at the forum. In online and offline formats, the participants discussed the issues of publishing scientific articles in high-ranking journals, establishing the Eurasian Scientific Journals Association, the need to form a single professional platform for interaction between undergraduates and doctoral students from different countries, and writing scientific articles.





*Saule İsaliyeva* *Talqatlı Kibayev* *Hamlet İsaxanlı* *Hamlet İsaxanli*

# ABAY UNİVERSİTETİ NÜMAYƏNDƏLƏRİNİN PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI İLƏ GÖRÜŞÜ

# MEETING OF ABAI UNIVERSITY REPRESENTATIVES WITH PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI

Martın 16-da Qazaxıstan Abay Universitetinin nümayəndələri ilə professor, akademik Hamlet İsaxanlının görüşü olmuşdur.

Görüşdə Abay Universitetinin Elmi Nəşrlər Mərkəzinin rəhbəri Dr. Talqatlı Kibayev, "Pedaqogika və psixologiya" elmi-metodiki jurnalının texniki katibi Saule İsaliyeva və digər əməkdaşları iştirak etmişlər.

Görüş zamanı Abay Universiteti ilə Xəzər Universiteti arasındakı əlaqələrin gücləndirilməsi əsas müzakirə mövzusu olmuşdur.

Görüşün sonunda Qazaxıstanın milli geyimi professor, akademik Hamlet İsaxanlıya hədiyyə olaraq təqdim edilmişdir.

Qeyd edək ki, Abay Universitetinin nümayəndələri martın 16-17-də keçirilən Elmi Jurnal Redaktorlarının Birinci Avrasiya Forumu çərçivəsində Xəzər Universitetində səfərdə olublar.

On March 16, professor, academician Hamlet Isakhanli had a meeting with the representatives of Abay University of Kazakhstan.

Dr.Talgatli Kibayev, head of the Scientific Publications Center of Abay University, Saule Isaliyeva, technical secretary of the "Pedagogy and psychology" scientific-methodical journal, and other employees took part in the meeting.

Strengthening relations between Abay University and Khazar University was the main topic of discussion during the meeting.

At the end of the meeting, the national costume of Kazakhstan was presented as a gift to professor, academician Hamlet Isakhanli.

Note that representatives of Abay University visited Khazar University within the framework of the First Eurasian Forum of Scientific Journal Editors held on March 16-17.



## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ TƏDQİQATLAR GÜNÜNDƏ EKSPERT KİMİ ÇIXIŞ ETDİ

Martın 23-də İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova Beynəlxalq Tədqiqatlar Günündə ekspert qismində "Düzgün tədqiqat mövzusunun seçilməsi" mövzusunda çıxış



*Milana Abbasova*



*Sheng Lung Peng*



*Prasenjit Chatterjee*

etmişdir. Digər natiqlər Prof. Sheng Lung Peng (Milli Taypey Universiteti, Tayvan), Dr. Prasenjit Chatterjee (Vilnius Gediminas Universiteti, Litva), Dr. Saurabh Agarval (IBM və YUNESKO-nun məlumatların təhlili üzrə məsləhətçisi, Oman), Dr. V. Ajantha Devi



*Saurabh Agarval*



*V. Ajantha Devi*





*Caleb Moyo*

(AP3 Solutions laboratoriyasının tədqiqat rəhbəri, Hindistan), Dr. Caleb Moyo (Eudoxia Araşdırma Universiteti, ABŞ) idi.

Seminar Omanın Maskat şəhərindəki Müasir Biznes və Elm Kolleci tərəfindən onlayn formatda təşkil olunmuşdu.

## HEAD OF ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT AS A RESOURCE PERSON AT THE INTERNATIONAL RESEARCH DAY

On March 23, Dr. Milana Abbasova the head of the English Language and Literature department delivered her speech on "Selecting a right research topic" as a resource person at the International Research Day. The other speakers were Prof. Sheng Lung Peng (National Taipei University, Taiwan), Dr. Prasenjit Chatterjee (Vilnius Gediminas University, Lithuania), Dr. Saurabh Agarwal (Consultant to IBM and UNESCO for Data Analysis, Oman), Dr. V.Ajantha Devi (Research Head AP3 Solutions, India), Dr. Caleb Moyo (Eudoxia Research University, the USA).

The workshop was organized online by Modern College of Business and Science, Muscat, Oman.




# "XƏZƏR"İN ƏMƏKDAŞI CABİR NOVRUZUN YUBİLEY TƏDBİRİNDƏ

Martın 25-də Göyçay şəhərindəki Ə.Səmədli adına Arvan kitabxanasında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Cabir Novruzun 90 illiyinə həsr edilmiş "Dünya bir nəğmə idi" ədəbi-bədii tədbir keçirildi.

Tədbiri kitabxananın müdiri Mehriban Məmmədova açaraq, C. Novruz yaradıcılığından, onun incə poeziyasından danışdı. Sonra Göyçay Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Zəfər Hacıyev, Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecinin aparıcı müəllimi Rafiq Abdullayev, rayon məktəblərinin ədəbiyyat müəllimləri çıxış etdilər.

Məktəblilər C.Novruz poeziyasından seçilmiş nümunələri səsləndirdilər.

Tanınmış tarzən Rövşən Zamanov şairin sözlərinə yazılmış musiqi parçalarını məharətlə ifa etdi.

Xəzər Universitetinin məzunu Mürsəl Rövşən oğlu, gənc kinoşünas Vasif Ayan tədbirdə fəal iştirak etdilər.

Tədbirdə Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova C. Novruzun yaradıcılığından, şair xəyalının zənginliyindən, poeziyasının musiqi ilə vəhdətindən danışdı.

# KHAZAR UNIVERSITY EMPLOYEE AT JABIR NOVRUZ'S JUBILEE EVENT

On March 25, the literary and artistic event "The world was a song" dedicated to the 90th anniversary of Jabir Novruz, the prominent representative of Azerbaijani literature, national poet, was held at the Arvan library named after A.Samadli in Goychay.



Opening the event, the head of the library Mehriban Mammadova spoke about J. Novruz creativity and his fine poetry. Then, Director of Goychay District centralized Library System Zafar Hajiyev, leading teacher of Goychay State College of Management and Technology Rafig Abdullayev, teachers of literature of district schools made speeches.

Schoolchildren recited selected examples from J.Novruz poetry.

The well-known tar player Rovshan Zamanov performed pieces of music written to the words of the poet.

Mursel Rovshan, the graduate of Khazar University, and Vasif Ayan, the young film critic, took an active part in the event.

At the event, Firangiz Nasirova, the head teacher of Khazar University's English Language and Literature Department, spoke about J. Novruz's creativity, the richness of the poet's imagination, and the unity of his poetry with music.

# MUSLİM İNSTİTUTUNUN ƏMƏKDAŞI İLƏ GÖRÜŞ

# MEETING WITH THE EMPLOYEE OF MUSLIM INSTITUTE

Martın 27-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsində MUSLİM İnstitutunun əməkdaşı Asef Tanveer Awan`la görüş keçirilmişdir. Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr.Orxan Vəliyev və Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Tərlan Orucovanın iştirak etdiyi görüşdə gələcək əməkdaşlığın təməli qoyulmuş, mədəniyyət, ədəbiyyat, beynəlxalq münasibətlər və digər mövzularda tədbir və konfransların keçirilməsi, birgə tədqiqatların aparılması, həmçinin mübadilə proqramlarının təşkili ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Qeyd edək ki, MUSLİM İnstitutu baş ofisi İslamabadda yerləşən tədqiqat institutudur. İnstitutun əsas məqsədi bütün dünyada, eləcə də müsəlman dünyasında sülhün və rifahın təşviqidir. MUSLİM İnstitutu tərəfsiz və azad tədqiqatlar apararaq, nəticələri müxtəlif məqalələr, hesabatlar, brifinqlər şəklində ictimaiyyətlə bölüşür, dünyada artan islamofobiya təzahürlərinin qarşısını almağa çalışır.



*Orxan Vəliyev, Asef Tanveer Awan, Elza Səmədova,Tərlan Orucova*
*Orkhan Valiyev, Asef Tanveer Awan, Elza Samadova, Tarlan Orujova*

On March 27, a meeting was held with Asef Tanveer Awan, an employee of MUSLIM Institute, at the School of Humanities, Education and Social Sciences of Khazar University. In the meeting attended by Dean of the Faculty of Humanities, Education and Social Sciences Associate Professor Elza Samadova, Head of the Department of Political Sciences and Philosophy Dr. Orkhan Valiyev and Deputy Dean of the Faculty of Humanities, Education and Social Sciences Tarlan Orujova, the foundation of future cooperation was laid, ideas were exchanged regarding holding events and conferences on culture, literature, international relations and other topics, conducting joint research, and organizing exchange programs.

Note that MUSLIM Institute is a research institute headquartered in Islamabad. The main objective of the Institute is to promote peace and prosperity throughout the world, as well as in the Muslim world. The MUSLIM Institute conducts impartial and free research, shares the results with the public in the form of various articles, reports, briefings, and tries to prevent the growing manifestations of Islamophobia in the world.

## BŞH-NİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ

## EMPLOYEES OF BCC AT KHAZAR UNIVERSITY





*İranə Əhmədova*
*Irana Ahmadova*

Martın 28-də Bakı Şəhər Halqası (BŞH) Əməliyyat Şirkətinin Kommunikasiya rəhbəri Turab Teymurov və İnsan resursları rəhbəri İranə Əhmədova Xəzər Universitetində tələbələrə "Formula 1" - də müxtəlif karyera imkanları haqqında məlumat vermişlər.

Sonra mövzu ilə əlaqədar müzakirələr aparılmış, tələbələrin sualları cavablandırılmışdır.

On March 28, Turab Teymurov, Head of Communication of Baku City Circuit Operations Company (BCC), and Irana Ahmadova, Head of Human Resources, informed students at Khazar University about various career opportunities in Formula 1.

Then discussions on the topic were held, students' questions were answered.

## ALİ TƏHSİL İSLAHATLARI EKSPERTLƏRİ MİLLİ KOMANDALARININ GÖRÜŞÜ

Martın 29-da Ali Təhsildə İslahatlar Ekspertlərinin (ATİE) görüşü keçirilmişdir.

Altı ekspertin iştirakı ilə keçən onlayn görüşdə Xəzər Universitetini İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva təmsil etmiş, eksperti olduğu Bilik üçbucağı və 3 pilləli təhsil sistemi haqqında öz məsləhətlərini bölüşmüşdür. Bununla yanaşı, Raziyə İsayeva institusional səviyyədə, ATİE islahatlarının tətbiqi və həyata keçirilməsi ilə əlaqədar öz fikrini bildirmişdir.

Qeyd edək ki, Ali Təhsildə İslahatlar Ekspertləri Milli Komandalarının məqsədi Lissabon və Bolonya hədəflərinə doğru irəliləməyi təşviq etmək və inkişaf etdirmək üçün müəyyən sahələrdə təcrübə toplamaqdır. Bu geniş məqsədlər daxilində Milli Komanda digər fəaliyyətlərlə yanaşı, ali təhsil müəssisələrinə aşağıdakı istiqamətlər üzrə məsləhətlər verməlidir:

Keyfiyyət Təminatı (daxili və xarici) 3 pilləli təhsil sistemi: tədris islahatları, milli və Avropa ixtisas seçimi çərçivələri (NQF / EQF), Dərəcələrin tanınması (AKTS, Diplom Əlavəsi, Avropass, Lissabon Tanınması Konvensiyası).

## MEETING OF NATIONAL HIGHER EDUCATION REFORM EXPERTS TEAMS

On March 29, a meeting of Higher Education Reform Experts (HERE) was held.

Raziya Isayeva, director of the Development Center, represented Khazar University at the meeting held online with the participation of six experts and shared her advice about the Knowledge Triangle and the 3-level education system, which she is an expert in. At the same time, Raziya Isayeva expressed her opinion on the application and implementation of HERE reforms at the institutional level.

Note that the goal of the national teams of Higher Education Reform Experts is to gain experience in certain areas in order to promote and develop progress towards the goals of Lisbon and Bologna. Within these broad objectives, the national team, among other activities, should advise higher education institutions on the following areas:

Quality Assurance (internal and external) 3-level education system: educational reforms, national and European qualification selection frameworks (NQF / EQF), Recognition of Degrees (AKTS, Diploma Supplement, Europass, Lisbon Recognition Convention).





*Nigar Əliyeva*
*Nigar Aliyeva*

## "AZERBAIJAN FISH FARM" ŞİRKƏTİNİN TƏQDİMATI

Martın 31-də Xəzər Universitetində Karyera Mərkəzinin təşkil etdiyi "Azerbaijan Fish Farm" şirkətinin təqdimatı keçirildi. Şirkətin İnsan resursları üzrə departamentinin direktoru Nigar Əliyeva və həmin departamentin koordinatoru Ülviyyə Cəfərova şirkətin sturukturu və fəaliyyəti haqqında ətraflı məlumat verdilər.

Sonra şirkətin təcrübə proqramları - istehsalat, maliyyə, satınalma, insan resusları, marketing, kimya mühəndisliyi, biologiya və s. barədə danışdılar və tələbələrin karyeraya başlamaq imkanları müzakirə olundu, təcrübə proqramlarına qoşulmaq mərhələləri izah edildi. Sonda isə şirkətin əməkdaşları tələbələrin suallarını cavablandırdılar.

## PRESENTATION OF "AZERBAIJAN FISH FARM" COMPANY

On March 31, the presentation of the company "Azerbaijan Fish Farm" organized by the Career Center at Khazar University was held. Director of the Human Resources Department Nigar Aliyeva and coordinator of the same department Ulviyya Jafarova gave detailed information about the company's structure and activities.

Then they talked about the company's internship programs - production, finance, procurement, human resources, marketing, chemical engineering, biology et c. and discussed the opportunities for students to start a career, and explained the stages of joining internship programs. At the end, the employees of the company answered the students ' questions.



*Ülviyyə Cəfərova*
*Ulviyya Jafarova*



# BEYNƏLXALQ KONQRES: "EKO - MEMARLIQ VƏ DİZAYN PERSPEKTİVLƏRİ"

# "ECO ARCHITECTURE AND DESIGN PERSPECTIVES CONGRESS"





*Hamlet İsaxanlı*
*Hamlet İsakhanli*

Aprelin 4-də Xəzər Universitetinin Mərmər salonunda "Eko-memarlıq və dizayn perspektivləri" mövzusunda hibrid formatda beynəlxalq konqres keçirildi.

Konqres Xəzər Universitetinin Memarlıq və dizayn departamenti, Türkiyənin İKSAD İnstitutu,

On April 4th, the Eco Architecture and Design Perspectives Congress was held in a hybrid format at the Marble hall of Khazar University in Baku, Azerbaijan.

The Congress was organized by the Architecture and Design Department of Khazar University in



*Teymur Osmanov*




*Vəfa Quliyeva* *Vefa Guliyeva*




*Mirsalam Qənbərov* *Şəhla Abbasova*
*Mirsalam Ganbarov* *Shahla Abbasova*

Azərbaycqan Ekologiya və Təbii Sərvətlər Nazirliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, UNEC Dizayn Məktəbi və Eskişehir Osmanqazi Universiteti Memarlıq fakültəsinin birgə təşkilatçılığı ilə hibrid formatda təşkil olunmuşdu.

Mərmər salonda tələbələrin və iştirakçıların əsərlərindən ibarət bədii və dizayn tematik sərgisi də nümayiş etdirilirdi.

Açılış mərasimində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı iştirakçıları salamlayaraq, konqresin mühüm və aktual məsələyə həsr olunduğunu bildirdi və işinə uğurlar arzuladı.

Xəzər Universiteti Memarlıq və dizayn departamentinin müdiri professor Şəhla Abbasova çıxış edərək, tədbirin məqsədindən danışdı. O, konqresdə Azərbaycanla yanaşı müxtəlif ölkələrdən, o cümlədən Türkiyə, Almaniya, Cənubi Afrika, İndoneziya, Pakistan, Macarıstan, Malayziya, Əlcəzair, Mərakeş və Ukraynadan məruzəçilərin iştirak etdiyini vurğuladı və bildirdi ki, bu beynəlxalq iştirak mövzunun vacibliyini və ekoloji problemlərin həlli üçün qlobal əməkdaşlığın zəruriliyini nümayiş etdirir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Ekoloji Ekspertiza Agentliyindən Mirsalam Qənbərov çıxışında ekologiyanın aktual problemlərindən danışdı və bu məsələlərə hərtərəfli-sosial, iqtisadi və ekoloji amilləri nəzərə almaqla yanaşmağın vacibliyini vurğuladı.

UNEC Dizayn Məktəbinin direktoru, dosent Lalə Məmmədova bu sahədəki təcrübəsindən söz açdı və

*(Ardı səh.36-da)*

collaboration with IKSAD Institute of Türkiye, the Ministry of Ecology and Natural Resources, the "Icherisheher" State Historical-Architectural Reserve, Eskisehir Osmangazi University's Faculty of Engineering and Architecture and UNEC Design School both in person and online.

An art and design themed exhibition of works by students and participants was also displayed in the marble hall.

At the opening ceremony, professor, academician Hamlet Isakhanli, the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, welcomed the participants, stated that the congress




*Lalə Məmmədova*
*Lala Mammadova*

was dedicated to an important and urgent issue, and wished them success in their work.

Professor Shahla Abbasova, head of Khazar University Architecture and Design Department, spoke about the purpose of the event. She emphasized that speakers from different countries, including Türkiye, Germany, South Africa, Indonesia, Pakistan, Hungary, Malaysia, Algeria, Morocco and Ukraine, participated in the congress and stated that this international participation demonstrates the importance of the topic and the need for global cooperation to solve environmental problems.

Mirsalam Ganbarov from the Ministry of Ecology and Natural Resources and the State Ecological Expertise Agency talked about the current problems of ecology and emphasized the importance of approaching these issues comprehensively, taking into account social, economic and ecological factors.

Assoc. Prof. Lala Mammadova, director of the UNEC School of Design spoke about her expertise in the field of design and her views on eco-architecture.

Architect Sergei Tchoban, director of TCHOBAN

*(To be continued page 36)*

eko-memarlıq haqqında fikirlərini bölüşdü.

TCHOBAN VOSS Architekten memarlıq firmasının direktoru və Tchoban Fondunun təsisçisi, memar Sergei Tchoban və Almaniyadan tədbirə qoşulan layihə memarı Teymur Osmanov eko-memarlıq layihələri ilə bağlı təcrübələri haqqında təqdimat keçirərək, ekoloji təmiz dizayn və tikintiyə öz innovativ yanaşmalarını nəzərə çatdırdılar.

VOSS Architekten architectural firm and founder of Tchoban Foundation, and Teymur Osmanov, the project architect from TCHOBAN VOSS Architekten, who joined the event from Germany, made a presentation about their experience in eco-architecture projects and highlighted their innovative approach to environmentally friendly design and construction.

Dr. Mustafa Latif Emek, President of IKSAD, also




IKSAD-ın prezidenti Dr.Mustafa Latif Emek də çıxışında memarlıq və dizayn sahəsində geniş bilik və təcrübəsini və bunun davamlı və ekoloji cəhətdən təmiz binaların yaradılması üçün necə tətbiq oluna biləcəyini iştirakçılarla bölüşdü.

"İçərişəhər" Elm-Mədəniyyət Mərkəzinin direktorunun elmi işlər üzrə müşaviri, professor Vəfa Quliyeva eko-memarlıq və davamlı dizaynı mənimsəyərkən, mədəni irsin qorunmasının vacibliyi haqqında fikirlərini bildirdi.

Türkiyədən ESOGU-nun Bina Biliyi və İxtisaslaşma Direktoru Prof. Dr. Ayşen Öztürk eko-memarlıq sahəsində ən son yeniliklər və onun ekoloji problemlərin həllində necə istifadə oluna biləcəyi haqqında çıxış etdi.

Konqres sonra işini bölmələrdə davam etdirdi. Sonda konqres təşkilatçılarına tədbirin uğurlu təşkilinə görə təşəkkür plaketi təqdim olundu.

gave a speech during the Congress. He shared his extensive knowledge and experience in the field of architecture and design and how it can be applied to create sustainable and eco-friendly buildings.

Prof. Dr. Vefa Guliyeva, advisor on Scientific Affairs to the Director of "The Icherisheher" Scientific and Cultural Center, shared her experience and speech on the topic. She provided valuable insights into the importance of preserving cultural heritage while embracing eco-architecture and sustainable design.

Joining the Congress online from Türkiye, Prof. Dr. Ayshen Ozturk, director of Building Knowledge and Specialization at ESOGU, presented the latest developments in eco-architecture and how they can be used to address environmental challenges.

The Congress then continued its work in sections. At the end, a thank you plaque was presented to the congress organizers for the successful organization of the event.

## FİZİKA VƏ ELEKTRONİKA DEPARTAMENTİNDƏ SEMİNAR

## SEMINAR IN PHYSICS AND ELECTRONICS DEPARTMENT





*Hafiz Alisoy*

Aprelin 7-də Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin Fizika və elektronika departamentində Tekirdağ Namik Kemal Universitetinin (Türkiyə) Çorlu mühəndislik fakültəsinin Elektronika və telekommunikasiya mühəndisliyi departamentinin rəhbəri Prof. Dr. Hafiz Alisoy tərəfindən "Elmi məqalə necə yazılır və Fiziki hadisələrin elektrik dövrə elementləri vasitəsilə modelləşdirilməsi" mövzusunda seminar keçirildi.

Universitetin müəllim və tələbələrinin iştirakı ilə keçən seminarda elmi müzakirələr aparıldı, suallar cavablandırıldı.

On April 7, a seminar on "How to write a scientific article and Modeling of physical phenomena using electrical circuit elements" was held by Prof. Dr. Hafiz Alisoy, the head of the Electronics and Telecommunication Engineering Department of the Chorlu Engineering Faculty, Tekirdag Namik Kemal University (Türkiye), at the Physics and Electronics Department of Khazar University School of Science and Engineering .

Scientific discussions were held and questions were answered at the seminar with the participation of faculty and students of the university.

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ TISA-DA

Aprelin 10-da Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Azərbaycan Beynəlxalq Məktəbinin (The International School of Azerbaijan -TISA) dəvəti ilə məktəbin şagird və müəllim kollektivi ilə görüşmüşdür. Görüşdə Rövşən Abbasov Xəzər dənizinin Sumqayıt sahillərində keçirilmiş təmizləmə layihəsi barədə ətraflı məlumat vermiş, sənaye tullantıları ilə çirklənmənin mənfi təsirləri haqqında müzakirə aparılmışdır.

Sonra Rövşən Abbasov şagidrlərin suallarına cavab vermişdir. Eyni zamanda, TISA məktəbi ilə Xəzər Universiteti arasında ətraf mühit sahəsində ola biləcək əməkdaşlıq müzakirə olunmuşdur.

## DEPARTMENT HEAD OF KHAZAR UNIVERSITY AT TISA

On April 10, Rovshan Abbasov, head of Khazar University's Geography and Environment Department, met with the students and teacher staff of "The International School of Azerbaijan" (TISA) at the invitation of the school. At the meeting, Rovshan Abbasov gave detailed information about the cleaning project carried out on the shores of Sumgait of the Caspian Sea, and discussed the negative effects of industrial waste pollution.

Then Rovshan Abbasov answered the students' questions. At the same time, possible cooperation between TISA school and Khazar University in the field of environment was discussed.

# ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İSVEÇ SƏFƏRİ

# VISIT TO SWEDEN WITHIN ECAR PROJECT

Bakı Biznes Universitetinin koordinatorluğu və Avropa Komissiyasının maliyyə dəstəyi ilə həyata keçirilən, Xəzər Universitetinin tərəfdaş olduğu “Azərbaycanda Rektorlar Konfran-

Within the framework of the Erasmus+ project entitled "Establishment of a Rectors' Conference in Azerbaijan", partnered by Khazar University, coordinated by Baku Business



*Günel Bahəddinova*
*Gunel Bahaddinova*

sının yaradılması” adlı Erasmus+ layihəsi çərçivəsində İsveç Krallığının Stokholm şəhərinə növbəti səfər baş tutub. Azərbaycanın 16 ali təhsil müəssisəsindən 32 nəfər nümayəndənin iştirak etdiyi təlimlər 2023-cü il 27 fevral- 3 mart tarixlərini əhatə edib.

KTH Kral Texnologiya İnstitutunda “Ali təhsil sisteminin inkişafında rektorlar konfransının rolu” adı altında həyata keçirilən təlimlərin əsas məqsədi universitetlərdə elmi tədqiqat və innovasiya fəaliyyətlərinin inkişaf etdirilməsi olub. Təlim proqramına uyğun olaraq İsveç Rektorlar Konfransının, İspaniya Rektorlar Konfransının, Belçikanın Avropa İdarəetmə İnkişafı Fondunun (EFMD), İsveçin Kral Texnologiya İnstitutunun rəhbər şəxsləri tərəfindən İsveç, İspaniya və ümumilikdə qlobal mühitdə tədqiqat və innovasiya sistemləri, tədqiqatda keyfiyyət məsələləri, tədqiqatçıların elmi fəaliyyətinə xidmət edən nəşr infrastrukturu, eləcə də İsveç təcrübəsində doktorantura təhsili, doktorantların işə qəbulu kimi olduqca mühüm istiqamətlərdə təqdimatlar edilib, müzakirələr və fikir mübadilələri aparılıb.

Təlimlərin gedişində Rektorlar Konfransının fəaliyyəti ilə bağlı qrup işləri də həyata keçirilib. Proqramın yekununda Bakı Biznes Universitetinin mərkəz direktoru, layihənin koordinatoru Gülşən Bayramova və ECAR layihəsi çərçivəsində pilot olaraq yaradılan Elmi işlər üzrə komitənin sədri Elçin Süleymanov tərəfindən layihədə həyata keçirilən fəaliyyətlərin icrası və qarşıda duran mühüm vəzifələr, sözügedən Komitənin gələcək fəaliyyət planı haqqında müzakirələr aparılıb.

Səfərdə Xəzər Universitetini Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan müavini Günel Bahəddinova təmsil etmişdir.

University and funded by the European Commission, another visit took place to the city of Stockholm, the Kingdom of Sweden. The trainings attended by 32 representatives from 16 higher educational institutions of Azerbaijan were held from February 27 to March 3, 2023.

The key purpose of the trainings held under the title "The role of the Rectors' Conference in the development of the higher education system" at the KTH Royal Institute of Technology was the development of research and innovation activities in universities. According to the training program, leaders of the Swedish Rectors' Conference, the Spanish Rectors' Conference, the European Foundation for Management Development (EFMD) of Belgium and the Swedish Royal Institute of Technology delivered presentations, discussed and exchanged ideas in very important areas such as research and innovation systems in Sweden, Spain and the global environment in general, quality issues in research, publishing infrastructure serving the scientific activities of researchers, as well as doctoral studies on the Swedish experience, and recruitment of doctoral students.

During the training, group work was also carried out on the activities of the Rectors’ Conference. At the end of the program, Gulshan Bayramova, director of Center of Baku Business University, project coordinator, and Elchin Suleymanov, chairman of the Science Committee, established as a pilot under the ECAR project, discussed the implementation of the activities carried out within the framework of the project and the important tasks facing it, as well as the future action plan of the mentioned Committee.

Khazar University was represented by deputy dean of the Graduate School of Science, Arts and Technology Gunel Bahaddinova.



# BRİSTOL UNİVERSİTETİNİN PROFESSORU TARİQ MODOOD TƏRƏFİNDƏN ONLAYN SEMİNAR

# ONLINE SEMINAR BY PROFESSOR TARIQ MODOOD, UNIVERSITY OF BRISTOL

*Tariq Modood*

Martın 30-da Bristol Universitetinin (İngiltərə) professoru Tariq Modood`un "Multikultural millətçilik" ("Multicultural Nationalism") mövzusunda onlayn seminarı keçirilmişdir. Professor Modood islamofobiya və multikulturalizmin tədqiqatçılarından biridir.

Onlayn seminarda Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Tərlan Orucova və tələbələr iştirak etmişdir.

Seminarda millətçilik və multikulturalizm məsələləri əhatə olunmuşdur. Professor Modood milli kimliyin nə dərəcədə multikultural olub-olmadığını təhlil etmişdir. Təqdimatdan sonra tələbələrin sualları cavablandırılmışdır.

On March 30, an online seminar on "Multicultural Nationalism" by Professor Tariq Modood of Bristol University (England) was held. Professor Modood is one of the researchers of Islamophobia and multiculturalism.

Dr. Orkhan Valiyev, the head of the Department of Political Sciences and Philosophy of Khazar University, Tarlan Orujova, the deputy dean of the School of Humanities, Education and Social Sciences, and students participated in the online seminar. Issues of nationalism and multiculturalism were covered in the seminar. Professor Modood analyzed the extent to which national identity is multicultural. After the presentation, students' questions were answered.



# "XƏZƏR"İN ƏMƏKDAŞI BEYNƏLXALQ ELMİ KONFRANSDA

# KHAZAR UNIVERSITY STAFF MEMBER AT INTERNATIONAL SCIENTIFIC CONFERENCE

Aprelin 1-də Abay adına Qazax Milli Pedaqoji Universiteti tərəfindən "Təhsildə qiymətləndirmə" adlı virtual beynəlxalq elmi konfrans təşkil olunmuşdur. Tədbir universitetin Psixologiya və pedaqogika kafedrasının baş müəllimi Saule İsaliyeva`nın giriş sözü ilə başlamışdır.

Qazaxıstan, İndoneziya, Rusiya və Azərbaycandan bir sıra ekspertlərin iştirak etdiyi bu görüşdə Xəzər Universitetini İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva təmsil etmişdir. R. İsayeva "Ali təhsildə pedaqoji tədris" mövzusunda Azərbaycan təcrübəsini bölüşmüş, ona ünvanlanan sualları cavablandırmışdır.

Elmi müzakirə sual cavab sessiyası ilə yekunlaşmışdır.

On April 1, a virtual international scientific conference called "Evaluation in Education" was organized by Abay Kazakh National Pedagogical University. The event started with the introduction of Saule Isaliyeva, the head teacher of the University's Department of Psychology and Pedagogy.

Raziya Isayeva, director of the Development Center, represented Khazar University at this meeting, which was attended by a number of experts from Kazakhstan, Indonesia, Russia and Azerbaijan. R.Isayeva shared her Azerbaijani experience on the subject of "Pedagogical teaching in higher education" and answered the questions addressed to her.

The scientific discussion ended with a question-and-answer session.

# ERASMUS+ ECAR LAYİHƏSİNİN NÖVBƏTİ İDARƏETMƏ GÖRÜŞÜ

# NEXT MANAGEMENT MEETING OF ERASMUS+ ECAR PROJECT

Aprelin 5-də Bakı Biznes Universitetində Erasmus+ ECAR layihəsi çərçivəsində növbəti idarəetmə görüşü keçirilmişdir. Görüşdə Azərbaycandan olan tərəfdaş universitetlərin nümayəndələri iştirak edirdi.

Tədbir layihənin koordinatoru Gülşən Bayramovanın giriş sözü ilə başladı. O, gündəlikdə duran məsələləri iştirakçıların diqqətinə çatdırdı.

Görüş ərzində layihə çərçivəsindəki maliyyə məsələləri müzakirə olundu.

Tədbirdə Xəzər Universitetini İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quluyeva təmsil etdi.

İdarəetmə görüşü koordinatora ünvanlanan sualların cavablanması ilə yekunlaşdı.

On April 5, the next management meeting was held within the Erasmus+ ECAR project at Baku Business University. Representatives of partner universities from Azerbaijan participated in the meeting.

The event started with the introduction of Gulshan Bayramova, the coordinator of the project. She brought the issues on the agenda to the attention of the participants.

Financial issues within the framework of the project were discussed during the meeting. Sabina Guluyeva, project manager of the Development Center, represented Khazar University at the event.

The management meeting ended with answering the questions addressed to the coordinator.



*Fatimə Vəliyeva*
*Fatima Valiyeva*



*Almudena Vicente Aranda*

*Arzu Bədəlova*
*Arzu Badalova*

# SAN ANTONİO KATOLİK UNİVERSİTETİNİN ƏMƏKDAŞI "XƏZƏR"DƏ

# STAFF MEMBER OF SAN ANTONIO CATHOLIC UNIVERSITY AT KHAZAR UNIVERSITY

Aprelin 3-7-də İspaniyanın Mursiya şəhərində yerləşən San Antonio Katolik Universitetinin əməkdaşı Almudena Vicente Aranda Erasmus+ İşçi heyətinin Mübadilə Proqramı (KA 107\171, Training Mobility) çərçivəsində Xəzər Universitetinin Beynəlxalq əlaqələr ofisi

On April 3-7, Almudena Vicente Aranda, an employee of the Catholic University of San Antonio, located in Murcia, Spain, was received by the International Relations Office of Khazar University within the framework of the Erasmus+ Staff Exchange Program



*Elşən Abdullayev*  *Elshan Abdullayev*



tərəfindən qəbul edildi.

Proqramın ilk günü ofisin əməkdaşları ilə tanışlıq görüşü keçirildi. Görüşdə Beynəlxalq əlaqələr ofisinin koordinatorları Fatimə Vəliyeva və Arzu Bədəlova tərəfindən Xəzər Universiteti haqqında təqdimat və Azərbaycanın görməli yerləri haqqında tanıtım videoçarxı göstərildi. San Antonio Katolik Universitetinin əməkdaşı da təmsil etdiyi universitet haqqında təqdimatla çıxış etdi.

Proqrama uyğun olaraq universitetin Kitabxana İnformasiya Mərkəzində direktor Tatyana Zaytseva və direktor müavini Aytac Misgərli qonağa mərkəzin fəaliyyəti haqqında məlumat verdilər. Nailəxanım Mədəniyyət Mərkəzində o, Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış oldu. Neft mühəndisliyi departamentinin müdiri Elşən Abdullayev qonağı departamentin fəaliyyəti ilə tanış etdi.

Siyasi elmlər və fəlsəfə departamentinin

(KA 107\171, Training Mobility).

On the first day of the program, an introductory meeting with the office staff was held. At the meeting, Fatima Valiyeva and Arzu Badalova, the coordinators of the International Relations office, presented a presentation about Khazar University and a promotional video about the sights of Azerbaijan. The employee of San Antonio Catholic University also made a presentation about the university she represents.

In accordance with the program, Tatyana Zaytseva, director of the Library Information Center, and Aytac Misgarli, deputy director informed the guest about center's activities. In the Nailkhanim Culture Center, she got acquainted with the exhibits reflecting the life and activities of Nailekhanim Isayeva. Elshan Abdullayev, head of the Oil Engineering Department, introduced the guest to the department's activities.

A meeting was held with the head of the Department of Political Sciences and Philosophy, Orkhan Valiyev, and the guest received detailed information about the department. Almudena Vicente Aranda met with Baba Bayramov, the faculty member of the Department of Political Sciences and Philosophy, attended his "History of International Relations" class as a listener and informed the students about the university where she works and its programs.

On the next day of the program, a workshop on "Internationalization in Higher Education Institutions" was held by vice-rector for International Relations Vlad Vernygora.

On the last day of the visit, the guest went on an excursion to the State Historical-Architectural Reserve "Ateshgah Temple".

At the end of the program, a certificate and a gift were presented to Almudena Vicente Aranda by the vice-rector for International Relations.



müdiri Orxan Vəliyev ilə görüş keçirildi və qonaq departament haqqında ətraflı məlumat aldı. Almudena Vicente Aranda Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Baba Bayramov ilə görüşdü, onun "Beynəlxalq Əlaqələrin Tarixi" dərsində dinləyici olaraq iştirak etdi və tələbələrə çalışdığı universitet və onun proqramları haqqında məlumat verdi.

Proqramın növbəti günündə Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora tərəfindən "Ali təhsil müəssisələrində beynəlmiləlləşmə" mövzusunda vörkşop keçirildi.

Səfərin son günündə qonaq "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda ekskursiyada oldu.

Proqramın sonunda Beynəlxalq əlaqələr üzrə prorektor tərəfindən Almudena Vicente Aranda`ya sertifikat və hədiyyə təqdim edildi.



*Vlad Vernygora*

# TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN TELEKANALLARINDA

# HEAD OF HISTORY AND ARCHEOLOGY DEPARTMENT IN AZERBAIJANI TV CHANNELS

2023-cü il martın 8-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dr.Telman Nüsrətoğlu Quliyev *arb24* kanalının "*Gündəm*" verilişinin qonağı olmuşdur.

Departament müdiri verilişdə Köçəryandan başlamış Vardanyan və digərlərinə qədər hamısının Rusiya xüsusi xidmət orqanlarının bölgədəki fiqurları olması, onlara verilən vəzifələr, Sovet İttifaqının dağılmasından günümüzədək Rusiyanın Cənubi Qafqazda öz təsirini, varlığını davam etdirmək üçün işğal və separatizmi bu agentlər vasitəsiylə təşviq etməsi, Azərbaycan-Ermənistan münaqişəsinin həllinə mane olması və səbəbləri haqqındakı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

O, çıxışında üçlü bəyanatdan iki il yarım vaxt keçməsinə baxmayaraq, Rusiya və Ermənistanın hələ də öhdəliklərini yerinə yetirməyərək, Azərbaycan ərazilərindəki işğalçı qüvvələrin qalıqlarının çıxarılmadığını, Zəngəzur dəhlizinin açılmadığını nəzərə çatdırmış, Azərbaycan tərəfindən Laçın rayonunun Ermənistanla sərhədinin başladığı nöqtədə sərhəd-keçid məntəqəsi quraşdırılmasının şərt olduğunu qeyd etmişdir.

On March 8, 2023, Telman Nusratoghlu Guliyev, head of Khazar University's History and Archeology Department, was a guest of *arb24* channel's "*Gündəm*" ("*Agenda*") program.

The head of the department shared his views with the audience and stated that starting from Kocharyan to Vardanyan and others, all of them are figures of the Russian special services in the region, spoke on the tasks assigned to them, Russia's promotion of occupation and separatism through these agents in order to maintain its influence and existence in the South Caucasus from the collapse of the Soviet Union to the present, obstacles to the resolution of the Azerbaijan-Armenia conflict and its reasons in the program.

In his speech, he mentioned that despite the fact that two and a half years have passed since the tripartite declaration, Russia and Armenia have still not fulfilled their obligations, and noted that the remnants of the occupying forces in the territories of Azerbaijan have not been removed, and the Zangezur corridor has not been opened.

* * *

2023-cü il martın 16-da Dr.Telman Nüsrətoğlu *AZTV*-nin "*Əsas məsələ*", *arb24*-ün "*İşgüzar Saat*" proqramlarındaa TDT (Türk Dövlətləri Təşkilatı) liderlərinin Ankara müzakirələrini, Türk dövlətləri arasındakı birliyin daha da möhkəmləndirilməsi prosesi və Türk dünyasının gündəmində yer alan məsələləri şərh etmişdir.

On March 16, 2023, Dr. Telman Nusratoghlu, commented on the Ankara discussions of OTS (Organization of Turkic States) leaders, the process of further strengthening of the union between the Turkish states and the issues on the agenda of the Turkic world on *AZTV*'s "*Main topic*" and *arb24*'s "*Business Hour*" programs.

* * *

2023-cü il martın 29-da Dr.Telman Nüsrətoğlu *AZTV*-nin "*Əsas məsələ*", *arb24*-ün "*Gündəm*" verilişlərində 31 Mart soyqırımı, Ermənistanla münasibətlərin gələcəyi və s. kimi regional gündəmdə yer alan mövzularla bağlı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On March 29, 2023, Dr. Telman Nusratoghlu, shared his views with the audience on topics on the regional agenda, such as the March 31 genocide, the future of relations with Armenia, and others on *AZTV*'s "*Main Topic*" and *arb24*'s "*Agenda*" programs.

* * *

2023-cü il aprelin 10, 11 və 12-də Dr. Telman Nüsrətoğlu *AZTV*-nin "*Əsas məsələ*", *arb24*-ün "*Gündəm*" və *Xəzər TV*-nin "*Xəbərlər*" proqramına qonaq olaraq, regional və qlobal gündəmə dair mövzuları şərh etmişdir.

On April 10, 11 and 12, 2023, Dr.Telman Nusratoghlu commented on regional and global agenda topics as a guest at *AZTV*'s "*Main Topic*", *arb24*'s "*Agenda*" and *Khazar TV*'s "*News*" programs.

## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# "HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİ-İCTİMAİ FİKRİ" ADLI ELMİ SESSİYA

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Heydər Əliyev və Azərbaycan ədəbi-ictimai fikri" adlı elmi sessiya keçirilib.

Elmi sessiyanı giriş sözü ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açıb. "Heydər Əliyev İli" çərçivəsində ölkəmizdə və dünyada Ulu Öndərə həsr olunmuş silsilə tədbirlərin davam etdiyini deyən akademik İsa Həbibbəyli bu istiqamətdə Akademiyanın Tədbirlər planının da uğurla icra olunduğunu söyləyib. Qeyd edib ki, AMEA-nın tədbirləri respublika və Akademiya miqyasında həyata keçirilir və alimlərimiz Ümummilli Liderin həyatı və fəaliyyətinin dərindən öyrənilməsini, dahi şəxsiyyətin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərinin elmi cəhətdən əsaslandırılmış şəkildə ictimaiyyətə çatdırılmasını özünün borcu hesab edir.

Ulu Öndərin çoxəsrlik tariximizin nadir şəxsiyyətlərindən biri və zirvələri fəth etmiş görkəmli dövlət xadimi olduğunu bildirən akademik İsa Həbibbəyli vurğulayıb ki, Azərbaycanın yarıməsrlik inkişafının əsası Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır və o, hələ Dövlət Təhlükəsizliyi Komitəsində çalışdığı illərdə milli kadrların hazırlanması və irəli çəkilməsi işinə xüsusi diqqət yetirib. Akademik diqqətə çatdırıb ki, Ulu Öndərin ölkəmizə rəhbərlik etməyə başladığı illərdə Azərbaycan inkişafına görə ittifaq respublikaları içərisində son sıralarda qərarlaşsa da, dahi lider qısa müddətdə həyata keçirdiyi geniş islahatlarla Azərbaycanı keçmiş SSRİ-nin ən qabaqcıl ölkələrindən birinə çevirdi. 1990-cı illərdə isə Azərbaycanın müstəqilliyini itirmək təhlükəsini aradan qaldırdı,

dövlət orqanlarını yenidən formalaşdırmaqla əbədi müstəqilliyimizin təməlini atdı.

"Müasir dövrdə isə Azərbaycan dövləti Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə daha da inkişaf etdirilib, regionun və dünyanın aparıcı dövlətlərindən birinə çevrilib. Vətən müharibəsindəki şanlı Qələbə isə çoxəsrlik tariximizin nadir hadisəsidir və Müzəffər Ali Baş Komandan İlham Əliyev bu tarixə özünün əbədi imzasını qoyub. Xalqımız inanır ki, Prezident İlham Əliyevin iradəsi ilə Zəngəzur dəhlizi açılacaq, Ermənistanla sülh müqaviləsi imzalanacaq, Azərbaycan regionda və dünyada söz sahibi kimi öz mövqeyini qoruyacaq", - deyə akademik İsa Həbibbəyli vurğulayıb.

Akademiyanın Tədbirlər planından bir qismini diqqətə çatdıran akademik İsa Həbibbəyli aprel ayında "Heydər Əliyev İli"nə həsr olunmuş AMEA-nın Ümumi yığıncağının keçiriləcəyini, Azərbaycan və Türkiyə alimlərinin iştirakı ilə "Bir millət – iki dövlət" mövzusunda elmi konfransın təşkil olunacağını, "Ümummilli Lider Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası" sənədli filminin hazırlanacağını deyib. Həmçinin AMEA-nın "Heydər Əliyev İli"nə ən böyük töhfəsi olan və 2023-2024-cü illərdə nəşrə hazırlanan "Heydər Əliyev Ensiklopediyası"nın sözlüyünün layihəsinin hazırlandığı barədə də məlumat verib.

Ədəbiyyat İnstitutu tərəfindən isə "Heydər Əliyevin bədii obrazı: tarixilik və müasirlik" adlı monoqrafiyanın və Heydər Əliyevin Azərbaycan ədəbiyyatı ilə bağlı Fərman və Sərəncamlarından ibarət kitabın nəşrə hazırlandığını bildirib. Bundan əlavə, institutun "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalının bir buraxılışının Ulu Öndərə həsr olunacağını diqqətə çatdırıb.

"Ulu Öndərin həyatı və fəaliyyətinin elmi cəhətdən dərindən öyrənilməsi, bu istiqamətdə konfransların təşkili və nəşrlərin çapı, ölkəmizin elm sahəsində qazandığı nailiyyətlərin ictimaiyyətə çatdırılması alimlərimizin Ümummilli Liderin ruhu qarşısında hesabatı, alimlik, vətəndaşlıq borcudur", - deyə AMEA prezidenti bildirib.

Tədbirdə, həmçinin Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin "Azərbaycan reallığında Heydər Əliyev epoxası", AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Müstəqillik dövrü nəsrində Heydər Əliyev", filologiya elmləri doktoru Elnarə Akimovanın "Ədəbiyyatda azadlıq ideallarının intişarında Heydər Əliyevin rolu", filologiya elmləri doktoru Əlizadə Əsgərlinin "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" və filologiya elmləri doktoru, professor Vüqar Əhmədin "Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda məruzələri dinlənilib.



*Əlizadə Əsgərli, Qəzənfər Paşayev, Elnarə Akimova, İsa Həbibbəyli, Tehran Əlişanoğlu, Vüqar Əhməd*




## "ƏMİR XOSROV DƏHLƏVİ" KİTABI ÇAP OLUNUB

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Əmir Xosrov Dəhləvi" monoqrafiyası çap olunub. Ortaq başlanğıc və intibah dövrü Azərbaycan ədəbiyyatı şöbəsində hazırlanmış kitab "Sənətkarın elmi pasportu seriyası"nın 39-cu nəşridir.

Kitabın elmi redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. Ön sözün müəllifi və məsul redaktor filologiya elmləri doktoru, professor İmamverdi Həmidovdur. Rəyçi filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Hacıyevadır.

Kollektiv monoqrafiyada Nizami Gəncəvinin layiqli davamçılarından biri Hindistanda farsdilli ədəbiyyatın tanınmış nümayəndəsi Əmir Xosrov Dəhləvinin dövrü, həyatı, əsərləri və sənətkarlığı elmi cəhətdən öyrənilir. Kitabda şairin əsərlərində Nizami Gəncəvi "Xəmsə"sinin təsiri, habelə ölkəmizdə Dəhləvi irsinin tədqiqi, tərcüməsi və nəşri sahəsində Azərbaycan alimlərinin gördüyü işlər dəyərləndirilir.

Kitabdakı araşdırmalar Ədəbiyyat İnstitutunun alimlərindən İmamverdi Həmidov, Könül Hacıyeva, Nüşabə Araslı, Zəhra Allahverdiyeva, Vəfa Hacıyeva və Bəsirə Əzizəliyevaya məxsusdur. Kitabda həmçinin Dəhləvinin "Şirin və Xosrov" əsərindən parçalar da yer alıb.184 səhifəlik kitab "Elm və təhsil" nəşriyyatında nəşr edilib.

## "MÜQAYİSƏLİ ƏDƏBİYYATŞÜNASLIQ" JURNALININ NÖVBƏTİ SAYI




Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının növbəti (№2, 2022) sayı çap edilib. Jurnal akademik İsa Həbibbəylinin "Əbədiyaşar Əlişir Novai" məqaləsi ilə açılır.

"Müqayisəli ədəbiyyatşünaslıq" Beynəlxalq elmi jurnalının baş redaktoru AMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. redaktorun müavinləri filologiya elmləri doktorları, professorlar Məmməd Əliyev, Gülər Abdullabəyova, Bədirxan Əhmədovdur. Jurnalın məsul katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli, məsul redaktoru isə Maral Poladovadır.

Bu sayın "Türk xalqları ədəbiyyatı", "Slavyan xalqları ədəbiyyatı", "Avropa və Amerika ədəbiyyatı", "Asiya və Afrika xalqları ədəbiyyatı" bölümlərində müxtəlif elmi məqalələr işıq üzü görüb. "Bələdçi" Azərbaycan, ingilis və rus dillərindədir.

Jurnalın redaksiya heyətinə Azərbaycan, Türkiyə, Rusiya, Çin, Özbəkistan, Bolqarıstan, Qırğızıstan, Macarıstan, Çexiya, Başqırdıstan, Tatarıstan, Cənubi Koreya, Qazaxıstan, Türkmənistan, Ukrayna və Polşanın alimləri daxildir.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN MEDIASINDA
## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD IN AZERBAIJANI MEDIA

2023-cü il aprelin 17-də Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu İrəvanda keçirilən beynəlxalq idman yarışı zamanı erməninin Azərbaycan bayrağını yandırması hadisəsi və Ermənistanın nifrət və düşmənçilik siyasətini davam etdirməsi bağlı AZƏRTAC və Bayraqdar.info-ya müsahibə vermişdir.

Müsahibələri aşağıdakı linklərdən oxumaq olar:

On April 17, 2023, Khazar University History and Archeology Department Head Dr.Telman Nusratoghlu gave an interview to AZERTAC and Bayragdar.info regarding the incident of an Armenian burning the Azerbaijani flag during an international sports competition in Yerevan and Armenia's continued policy of hatred and hostility.

The interviews can be accessed via the following links:

*https://azertag.az/xeber/Telman_Nusretoglu_Irevanda_bayragimizin_yandirilmasi_ermeni_vandalizminin_mahiyyetini_ortaya_qoyan_hadisedir-2576324*

*https://www.bayraqdar.info/2023/04/17/erm%C9%99nil%C9%99r-bu-%C9%99m%C9%99ll%C9%99ri-il%C9%99-ozl%C9%99ri-ozl%C9%99rini-ifsa-etdil%C9%99r/*

* * *

2023-cü il aprelin 19-da Dr. Telman Nüsrətoğlu arb24-ün "İşgüzar səhər" verilişində Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olduqları ilə bağlı son bəyanatını şərh etmiş, Cənubi Qafqazda davamlı sülhə nail olmanın yolları haqqındakı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On April 19, 2023, Head of the Department of History and Archeology Dr. Telman Nusratoghlu commented on Pashinyan's latest statement on the readiness to recognize the territorial integrity of Azerbaijan in arb24's "Business Morning" program, and shared his views on ways to achieve sustainable peace in the South Caucasus with the audience.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ AZƏRBAYCAN TELEKANALLARINDA
## HEAD OF POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT ON AZERBAIJAN *TV* CHANNELS

Xəzər Univerasiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2023-cü il martın 31-də *Arb24 TV*-nin "*Gündəm*" proqramında; aprelin 3-də isə *Yeni TV*-nin canlı yayımında iştirak edərək, İran-Azərbaycan, sülh müzakirələri daxil gündəlikdəki bir sıra siyasi məsələlərə dair dəyərləndirmələrini bölüşmüşdür.

On March 31, 2023, Head of the Department of Political Sciences and Philosophy of Khazar University, Dr. Orkhan Valiyev participated in *Arb24 TV*'s "*Agenda*" program and on April 3, participated in the live broadcast of *Yeni TV* and shared his views on a number of political issues on the agenda, including Iran-Azerbaijan peace talks.

* * *

2023-cü il aprelin 12-də Dr. Orxan Vəliyev *İctimai TV*-nin "*Sabaha saxlamayaq*" proqramında iştirak edərək, Nəriman Nərimanovla bağlı fikirlərini paylaşmışdır.

On April 12, 2023, Dr. Orkhan Valiyev, participated in the "*Sabaha saxlamayaq*" ("*Let's not leave it until tomorrow*") program of *Public TV* and shared his views on Nariman Narimanov.

* * *

2023-cü il aprelin 21-də Dr. Orxan Vəliyev *Mediapost internet TV*-də İran-Azərbaycan münasibətlərinə dair proqramda iştirak edərək, fikirlərini bölüşmüşdür. Aprelin 24-də *Arb24 TV*-nin "*İş vaxtı*" proqramında isə Azərbaycanın Laçın dəhlizində sərhəd keçid məntəqəsi açması ilə bağlı sualları cavablandırmışdır.

On April 21, 2023, Dr.Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy of Khazar University, participated in the program on Iran-Azerbaijani relations on Mediapost Internet TV and shared his views. On April 24, in Arb24 TV's "Working Time" program, he answered questions about Azerbaijan's opening of a border crossing point in the Lachin Corridor.

# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLININ "QARABAĞ VƏ TARİX" MÖVZUSUNDA SEMİNARI

# PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI'S SEMINAR ON "KARABAKH AND HISTORY"





*Orxan Vəliyev*
*Orkhan Valiyev*

Aprelin 7-də Xəzər Universiteti Nefçilər kampusunun Mərmər salonunda Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Professor, akademik Hamlet İsaxanlının "Qarabağ və

On April 7, a seminar on "Karabakh and history" by professor, academician Hamlet Isakhanli, founder of the university, chairman of the Board of Directors and Trustees, was held in the Marble hall of the Khazar University Nefchilar campus, organized by




*Fuad Çıraqov*
*Fuad Chiragov*



*Nurlan Nəsirov*
*Nurlan Nasirov*

tarix" mövzusunda seminarı keçirildi.

Seminarda Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, tələbələr, ölkənin elm və ədəbiyyat nümayəndələri iştirak edirdilər.

Departamentin dördüncü kurs tələbəsi Rəhiməxanım Ağazadənin moderatorluğu ilə keçən seminar Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin giriş nitqi ilə başladı. Canlarını Azərbaycanın ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi



*Hakan Yavuz*

bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Himni səsləndirildi.

Hibrid formatda davam edən seminarda Yutah Universitetindən (ABŞ) Prof. Hakan Yavuz, Bayburt Universiteti (Türkiyə) Tarix bölümünün müəllimi Dos. Ramin Sadık, Qərbi Kaspi Universiteti Tarix kafedrasının müdiri Dr. Nurlan Nəsirov, Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin müdir müavini Fuad Çıraqov, tarixçi Əkbər Nəcəf, yazıçı Aqşin Yenisey, İstanbul Universiteti Tarix bölümünün doktorantı Dilqəm Əhməd H. İsaxanlının "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabı haqqında fikirlərini bildirdilər.

(*Ardı səh.52-də*)




*Əkbər Nəcəf*
*Akbar Najaf*

the Department of Political Sciences and Philosophy.

Khazar University administration and employees, students, representatives of science and literature of the country participated in the seminar.

The seminar moderated by Rahimkhanim Aghazade, the fourth-year student of the department, began with an introductory speech by dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy. The National Anthem of the Republic of Azerbaijan was played after a minute's silence in memory of the martyrs of the Patriotic War, who sacrificed their lives for the territorial integrity of Azerbaijan.

Professor Hakan Yavuz from the University of Utah (USA), Associate Professor Ramin Sadık, lecturer of the Department of History at Bayburt University (Turkey), Dr. Nurlan Nasirov, head of the Department of History at the Western Caspian University, Fuad Chiragov, deputy director of the South Caucasus Research Center, historian Akbar Najaf, writer Agshin Yenisei, Istanbul University's doctoral student of History Department Dilgam Ahmed participated in the hybrid format seminar, expressed their

(*To be continued page 52*)



Qonaqların kitab və mövzu ətrafındakı dəyərləndirmələrindən sonra H. İsaxanlı "Qarabağ və tarix" mövzusunda məruzə etdi, "Mənim Qarabağım və ya Qarabağ düyünü" kitabının yazılmasında 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfərin əsas motivasiya olduğunu söylədi.

Seminar sual-cavab sessiyası ilə başa çatdı.

opinion about H. Isakhanli's book "My Karabakh or the Karabakh Knot".

After the guests discussion of the book and the topic, H. Isakhanli made a speech on" Karabakh and history "and said that the great victory in the 44-day Patriotic War was the main motivation for writing the book" My Karabakh or the Karabakh Knot".

The seminar ended with a question and answer session.






*Aqşin Yenisey*
*Agshin Yenisei*




## "XƏZƏR"İN MÜƏLLİMİNİN YENİ ŞEİRLƏR KİTABI ÇAP OLUNUB

Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, tanınmış şair və ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru Qardaşxan Haqqararın (Əzizxanlı) "Nə o - yelkən, nə bu - gəmi" adlı beşinci şeirlər kitabı "Elm və təhsil" nəşriyyatında çapdan çıxmışdır.

Məzmununa görə dörd bölümdən ibarət kitabın ilk bölümü "Dualar"da şair inam, iman və etiqadın insan mənəviyyatının saf, pak, kamil formalaşmasındakı önəmini nəzərə çatdırır və duaları ilə də buna səsləyir. "İmza yerinə rəmzi qılınc" bölümündə müəllifin öz izahına görə "Qələmə, Sözə terrora etiraz şeirləri" toplanıb. Şairin izahına əlavə olaraq bildirək ki, həm bu bölümdə, həm də sonrakı iki bölümdə ("Nə o - yelkən, nə bu - gəmi", "Qafiyəsiz poeziya") verilmiş şeirlərdə vətəndaşlıq motivləri – yurdsevərlik, qeyrət, mərdlik, cəsarət tərənnüm olunur. Qeyd edək ki, şair dünyaduyumunu özünün qeyri-adi orijinal düşüncə tərzi ilə ifadə edir.

Şeirlər kitabının redaktoru da Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi, tanınmış ədəbi tənqidçi Ülvi Babasoydur.

## KHAZAR UNIVERSITY FACULTY MEMBER'S NEW BOOK OF POEMS PUBLISHED

The fifth book of poems entitled "Neither that sail, nor this ship" by Gardashkhan Haqqarar (Azizkhanli), the instructor of the Department of Languages and Literature of Khazar university, a well - known poet and literary critic, Ph. D. in philology, was published in the "Science and Education" publishing house.

In the first chapter of the book, which consists of four parts, "Prayers", the poet takes into account the importance of trust, faith and belief in the pure and perfect formation of human spirituality and calls for it with his prayers. According to the author, "Poems against terrorism by pen and word" have been collected in the "Symbolic sword instead of signature" chapter, and both in this chapter and in the following two chapters ("Neither that sail, nor this ship ", "Poetry without Rhyme"), the motives of citizenship - patriotism, manliness, bravery, courage - are glorified.

Note that, the poet expresses his comprehension of the world via his unusual original way of thinking.

The editor of the book of poems is Ulvi Babasoy, the lecturer of the Department of Languages and Literatures of Khazar University, and a well-known literary critic.




## PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI TÜRK DÜNYASI MİLLİ ELMLƏR AKADEMİYALARI İTTİFAQININ BAŞ ASSAMBLEYASININ VI İCLASINDA

Aprelin 14-də Elm həftəsi çərçivəsində Əl-Fərabi adına Qazax Milli Universitetinin dəstəyi ilə Türk Dünyası Milli Elmlər Akademiyaları İttifaqının Baş Assambleyasının VI iclası keçirilib. Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, Qazaxıstan Respublikasının elm və ali təhsil naziri Sayasat Nurbek, Beynəlxalq Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, AMEA-nın vitse-prezidenti İbrahim Quliyev və başqaları iştirak ediblər.

Görüş iştirakçıları türk dünyasında elmi əməkdaşlığın inkişaf etdirilməsi yollarını nə-

## PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT THE VI MEETING OF GENERAL ASSEMBLY OF THE UNION OF NATIONAL SCIENCES ACADEMIES OF THE TURKIC WORLD

On April 14, the VI meeting of the General Assembly of the Union of National Academies of Sciences of the Turkic World was held with the support of Al-Farabi Kazakh National University as part of the Science Week. The meeting was attended by the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli, the Minister of Science and Higher Education of the Republic of Kazakhstan, Sayasat Nurbek, the president of the International Turkish Academy, Shahin Mustafayev, the president of the Azerbaijan National Academy of Sciences, Isa Habibbayli, the vice-president of ANAS, Ibrahim Guliyev and others.

The meeting participants reviewed the ways

zərdən keçirib, fikir mübadiləsi aparıblar.

Tədbirdən sonra Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Əl-Fərabi adına Qazax Milli Universitetinin rektoru, İdarə Heyətinin sədri Janseit Tuymebayev ilə elmi əməkdaşlıq memorandumu imzalayıb.

Memorandumun məqsədi universitetlər arasındakı əlaqələri inkişaf etdirmək, birgə elmi tədqiqatlar aparmaq və elmi kadrların bacarıqlarını artırmaqdır.

Memorandum çərçivəsində tərəflər kitabxana və elmi fondlardan birgə istifadə edəcək, elmi tədqiqat materialları və nəşrlərin mübadiləsini aparacaq, birgə seminar və konfranslar təşkil edəcək, elmi və akademik layihələr həyata keçirəcəklər.

of developing scientific cooperation in the Turkic world and exchanged views.

After the event, professor, academician Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, signed a memorandum of scientific cooperation with Janseit Tuymebayev, rector of the Kazakh National University named after Al-Farabi.

The purpose of the memorandum is to develop relations between universities, conduct joint scientific research and improve the skills of scientific personnel.

Within the framework of the memorandum, the parties will jointly use the library and scientific funds, exchange scientific research materials and publications, organize joint seminars and conferences, and implement scientific and academic projects.



*Janseit Tuymebayev iştirakçılar ilə*
*Janseit Tuymebayev with participants*



*Maratbek Gabdullin*

Tədbirdə, həmçinin, Xəzər Universiteti ilə Qazax-Britaniya Texniki Universiteti arasında da əməkdaşlıq, maariflənmə, elmi tədqiqat işləri yönündə addımlar atılacağına dair rektor Maratbek Gabdullin ilə razılaşma imzalanmışdır.

An agreement was also signed with Maratbek Gabdullin on taking steps towards cooperation, education and scientific research between Khazar University and the Kazakh-British Technical University.



*https://dknews.kz/en/articles-in-english/283132-vi-meeting-of-the-presidium-of-the-union-of-national*

*https://www.tuba.gov.tr/tr/haberler/akademiden-haberler/baskan-seker-tdubab-6.-genel-kurul-toplantisina-katildi*

*https://academy.uz/uz/news/turkiy-xalqlar-ilmiy-birdamlik-yolida*

*https://newsmedia.az/almatida-turk-dunyasi-milli-elml%c9%99r-akademiyalari-ittifaqinin-bas-assambleyasinin-vi-iclasi-kecirilib/*

# XƏZƏR UNİVERSİTETİ AHA-NIN TƏŞKİL ETDİYİ KARYERA GÜNÜNDƏ

Aprelin 15-də Mariott Absheron Baku hotelində Azərbaycan Hotellər Assosiasiyası (AHA) tərəfindən Dövlət Turizm Agentliyi, Dövlət Məşğulluq Agentliyi və Peşə təhsili üzrə Dövlət Agentliyinin əməkdaşlığı ilə qonaqpərvərlik sahəsində iş axtaran tələbə və məzunlar üçün karyera günü keçirildi. AHA-ya üzv olan 47 hotel və şirkət tədbirə vakansiya və təcrübə proqramları ilə qatıldı.

# KHAZAR UNIVERSITY AT CAREER DAY ORGANIZED BY AHA

On April 15, the Azerbaijan Hotel Association (AHA) held a career day for students and graduates looking for jobs in the field of hospitality with the cooperation of the State Tourism Agency, the State Employment Agency and the State Agency for Vocational Education in Mariott Absheron Baku hotel. 47 hotels and companies that are members of AHA participated in the event with vacancy and internship programs.



*Mustafa Həsənli* *Mustafa Hasanli*

Karyera günündə ümumilikdə müxtəlif universitet və peşə məktəblərinin tələbə və məzunları, Dövlət Məşğulluq Agentliyi tərəfindən yönləndirilən 800 şəxs işaxtaran qismində iştirak etdi. Ənənəvi karyera günlərindən fərqli olaraq, tədbir çərçivəsində qonaqpərvərlik üzrə ustad dərsləri təşkil olundu.

AHA-ya üzv olan hotellərin təmsilçiləri tərəfindən müxtəlif mövzularda təqdimatlar və interaktiv sessiyalar keçirildi.

Karyera gününə Xəzər Universiteti Karyera Mərkəzinin əməkdaşı Mustafa Həsənli və universitetin tələbə və məzunları da qatılmışdı. Sonda tələbə və məzunlar öz sahələri üzrə müvafiq şirkətlərdə iş və ya təcrübəyə qəbul olmaq üçün müraciət etdilər.

The Career Day was attended by students and graduates of various universities and vocational schools, 800 people directed by the State Employment Agency as job seekers. Unlike traditional career days, master classes on hospitality were organized as part of the event.

Representatives of AHA member hotels held presentations and interactive sessions on various topics.

Career Day was also attended by Khazar University Career Center employee Mustafa Hasanli and university students and graduates. In the end, students and graduates applied for employment or internship in relevant companies in their field.

# 22 APREL - ÜMUMDÜNYA YER KÜRƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR

Aprelin 20-də Xəzər Universiteti Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti ilə birgə Qaladakı "Eko-park"- da 22 aprel Ümumdünya Yer Kürəsi Günü münasibətilə tədbir təşkil etdi.

Tədbiri "Eko-park"ın direktoru Tahir Şıxəliyev və Xəzər Universitetinin rektoru açıblar. Rektor, dosent İradə Xəlilova Yer Kürəsi Gününün tarixi haqqında məlumat verdi. Sonra Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov Sumqayıt və Bakı ərazilərində çirklənmiş torpaqların rekultivasiyası barədə məlumat verdi.

Neft-qaz mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayev Azərbaycan gillərinin təbabətdə tətbiqi imkanları barədə danışdı. Tədbirdən sonra tələbələr "Eko-park"ın müxtəlif ərazilərində oldular.

# APRIL 22 - WORLD EARTH DAY EVENT

On 20 April Khazar University, with the Azerbaijan Society of Petroleum Geologists, organized Earth Day at the Gala "Eco-park".

The event was opened by the director of the Gala "Eco-park" Tahir Shıkhaliyev and the rector of Khazar University. The rector, associate professor Irada Khalilova, gave information about the history of Earth Day. Then Dr. Rovshan Abbasov, the head of the Department of Geography and Environment, gave information about the recultivation of contaminated land in Sumgait and Baku. Head of Petroleum Engineering Department Dr. Elshan Abdullayev spoke about the possibilities of application of Azerbaijani clays in medicine. After the event, students visited different sites in the Gala "Eco-park".






## “XƏZƏR”İN KEÇMİŞ BAKALAVR TƏLƏBƏLƏRİNİN HƏMMÜƏLLİF OLDUQLARI FƏSİLLƏR “FUNCTIONALIZED NANOFIBERS” KİTABINDA

Xəzər Universitetinin keçmiş bakalavr tələbələri Azər Əlyev və İsfəndiyar Eminlinin universitetin Nanotexnologiya laboratoriyasında apardıqları tədqiqatların nəticəsi olaraq həmmüəlliflikle hazırladıqları fəsillər “Elsevier” Nəçriyyat Çirkətinin çap etdiyi “Functionalized Nanofibers” (“Funksionlaşdırılmış nanofillər”) kitabında dərc olunmuşdur.

Azər Əliyevin həmmüəllifi olduğu fəsil “Superhidrofobik səthlərin reallaşdırılması üçün funksionallaşdırılmış nanoliflər”(“Functionalized nanofibers for the realization of superhydrophobic surfaces”), İsfəndiyar Eminlinin həmmüəllifi olduğu fəsil “Funksionallaşdırılmış nanolif əsaslı dərman ötürmə sistemləri və biosensasiya cihazları” (“Functionalized nanofiber-based drug delivery systems and biosensing devices”) adlanır.

Qeyd edək ki, Xəzər Universitetinin bakalavr pilləsini bitirmiş Azər Əliyev Qarabağ qazisidir. İsfəndiyar Eminli Nanotexnologiya Tədqiqat Qrupunun keçmiş bakalavr üzvüdür və hazırda Kentukki Universitetində (ABŞ) magistratura təhsilini davam etdirir.

Fəsilləri aşağıdakı linklər vasitəsilə oxumaq olar:

## CHAPTERS CO-AUTHORED BY FORMER KHAZAR UNIVERSITY BSC STUDENTS IN THE BOOK "FUNCTIONALIZED NANOFIBERS"

The chapters co-authored by Azer Aliev and Isfandiyar Eminli, former undergraduate students of Khazar University, as a result of the research conducted in the Nanotechnology Laboratory of the university, were published in the book "Functionalized Nanofibers" published by "Elsevier" Publishing Company.

The chapter co-authored by Azer Aliyev is called “Functionalized nanofibers for the realization of superhydrophobic surfaces“, and the chapter co-authored by Isfandiyar Eminli is “ Functionalized nanofiber-based drug delivery systems and biosensing devices” .

Azar Aliyev is the graduated BSc student of Khazar University and Karabakh veteran. Isfandiyar Eminli is the former BSc member of Nanotechnology Research Group and now pursuing his graduate studies at Kentucky University.

The chapters are available at the following links:

*https://www.sciencedirect.com/science/article/abs/pii/B9780323994613000170*
*https://www.sciencedirect.com/science/article/abs/pii/B9780323994613000066*






*Hamlet İsaxanlı*
*Hamlet Isakhanli*

## XƏZƏR UNİVERSİTETİNDƏ AZƏRBAYCAN 7-Cİ BEYNƏLXALQ PSİXOLOGİYA KONFRANSI

## THE 7TH AZERBAIJAN INTERNATIONAL PSYCHOLOGY CONFERENCE AT KHAZAR UNIVERSITY

Xəzər Universiteti Psixologiya departamenti və Xəzər Psixoloji Xidmət Mərkəzinin təşkilatçılığı ilə 2023-cü il aprelin 21-22-də Xəzər Universitetində Azərbaycan 7-ci Beynəlxalq Psixologiya Konfransı təşkil edildi. Konfransın açılışı Xəzər Universitetinin rəqs ansamblı ilə başladı. Sonra Xəzər Multimedia Mərkəzinin hazırladığı və əvvəlki illərin konfranslarını əks etdirən videomaterial nümayiş etdirildi.

Khazar University Psychology Department and Khazar Psychological Service Center organized the 7th Azerbaijan International Psychology Conference on April 21-22, 2023 at Khazar University. The opening of the conference began with the dance ensemble of Khazar University. Then the video material prepared by Khazar Multimedia Center reflecting the conferences of previous years was demonstrated to the participants.



*Ömer Akgül* *Omar Akgul*

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru Mələk Kərimova departament və Xəzər Psixoloji Xidmət Mərkəzinin bu tip seminar, təlim və konfranslarda aktiv yer aldığını qeyd edərək, konfransın açılışı üçün sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlıya verdi. O, bir ənənə halını alan konfransın işinə uğurlar diləyərək, psixologiyanın elm sahəsi kimi inkişafda olduğunu müsbət dəyərləndirdi. Universitetin rektoru dosent İradə Xəlilova bu kimi konfransların əhəmiyyətli olduğunu qeyd edərək, konfransa səmərəli iş arzuladı.

*(Ardı səh.62-də)*



*Ülkər İsayeva   Ulker Isayeva*



*Elnur Gajiev*

Melek Karimova, coordinator of the Department of Psychology at Khazar university, mentioned that the Department and Khazar Psychological Service Center are actively involved in such seminars, trainings and conferences, and gave the floor to professor, academician Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees to make the opening speech. He wished success to the work of the conference, which has become a tradition, and emphasized that it is a good and positive fact that psychology is in development as a branch of science. Rector of the University associate professor Irada Khalilova noted the importance of such conferences and wished the conference fruitful work.

*(To be continued page 62)*






*Hamit Coşkun* *Hamit Coskun*

Psixologiya departamentinin koordinatoru Mələk Kərimova konfransa Türkiyədən dəvət edilmiş əsas spikerlər və digərləri haqqında məlumat verdi. Bildirdi ki, konfransa İstanbul Psixodrama İnstitutunun qurucusu psixodramatist Deniz Altınay və institutun əməkdaşı psixodramatist Esra Bilik, Bolu Abant İzzət Baysal Universitetinin psixologiya fakültəsinin dekanı prof. Hamit Coşkun, Davranış Bilimləri İnstitutunun rəhbəri Dr. Emre Konuk, həmçinin İtaliyanın Cagliari Universitetinin doktorantı Ülkər İsayeva, Amerikanın Hawai Universitetindən Xəzər Universitetinə fulbrayt müəllim kimi gələn Dr. Elnur Gajiev və Sağlamlıq Elmləri İnstitutunun əməkdaşı Dr.Ömer Akgül dəvət edilmişdir.

Konfransda Dr. Elnur Gajiev "Sənətin terapevtik gücü. Sənət terapiyasının tətbiqi qaydaları və şəxsi inkişafda rolu" haqqında iştirakçılara təlim keçdi. Ülkər İsayeva "Şizofreniyada sağalma mümkündürmü? Şizofreniya müalicəsində yeni elmi yanaşmalara baxış" mövzusu barəsində ən son yenilikləri iştirakçılara çatdırdı.

Malak Karimova, coordinator of the Psychology Department, gave information about the key speakers and others invited to the conference from Türkiye. She noted that, the founder of the Istanbul psychodrama Institute, psychodramatist Deniz Altinay and the employee of the Institute, psychodramatist Esra Bilik, the dean of the Faculty of Psychology of the University of Bolu Abant Izzet Baysal prof. Hamit Coskun, the head of the Institute of Behavioral Sciences Dr. Emre Konuk, as well as the doctoral student of Cagliari University in Italy Ulker Isayeva, Dr. Elnur Gajiyev,



*Esra Bilik*

who came to Khazar University from the American University of Hawaii as a Fulbright lecturer, and Dr. Omar Akgul, an employee of the Institute of Health Sciences, were invited to the conference.

Dr. Elnur Gajiyev gave a training to the participants on "The therapeutic power of art.

Rules for the application of art therapy and its role in personal development" at the conference. Ulker Isayeva brought the latest innovations to the participants on "Is recovery possible in schizophrenia? Overview of new scientific approaches in the treatment of schizophrenia".




*Deniz Altınay* *Deniz Altinay* *Mələk Kərimova* *Melek Karimova*



Konfransın ikinci gününün daha çox hissəsini praktiki tapşırıqlar əhatə edirdi. Psixodramatist Deniz Altınay "Psixodrama -əsaslı qrup psixoterapiyası" barəsində iştirakçılarla bərabər praktiki təlim keçdi. Prof. Hamit Coşkun "Yaradıcılıq psixologiyası və beyin fırtınası: müasir yanaşma və strategiyaların şəxsi inkişafda əhəmiyyəti", Dr. Ömer Akgül "Həyat sizdən nə gözləyir? Loqoterapiyanın əsasları və praktikada tətbiqi", Esra Bilik "Neyro-psixodrama: psixodrama seansı zamanı beynimizdə nə baş verir?" mövzuları haqqında ətraflı müzakirələrə girməklə yanaşı, tətbiqi qaydalarını şərh etdilər.

Konfransda gələcək əməkdaşlıq məsələləri müzakirə edildi, iştirakçılara hədiyyə və sertifikat təqdim olundu.

Most of the second day of the conference was covered by practical tasks. Psychodramatist Deniz Altınay conducted practical training with the participants on "Psychodrama-based group psychotherapy". Various topics such as "Psychology of creativity and brainstorming: the importance of modern approaches and strategies in personal development", "What does life expect from you? The basics of logotherapy and its application in practice", "Neuro-psychodrama: what happens in our brains during a psychodrama session?" were brought to discussion by prof. Hamit Coskun ,Dr. Omar Akgul, Esra Bilik accordingly,as well as their rules of application were comennted upon.

Issues of future cooperation were discussed at the conference, gifts and certificates were presented to the participants.





# MEKSİKA SƏFİRİ MARİA VİCTORİA ROMERO CABALLERO`NUN "XƏZƏR"DƏ SEMİNARI

# MEXICAN AMBASSADOR MARİA VICTORIA ROMERO CABALLERO`S SEMINAR AT KHAZAR UNIVERSITY



*Maria Victoria Romero Caballero*

*Orxan Vəliyev, Baba Bayramov*
*Orkhan Valiyev, Baba Bayramov*

Aprelin 25-də Meksika Birləşmiş Ştatlarının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Maria Victoria Romero Caballero Xəzər Universitetində "Meksika və Azərbaycan: gələcək üçün tərəfdaşlıq yaradılması" ("Mexico & Azerbaijan: Creating a partnership for the future") mövzusunda seminar keçirmişdir.

Seminarda universitetin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimi Baba Bayramov, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekan müavini Tərlan Orucova və tələbələr iştirak etmişlər.

Seminar Azərbaycan və Meksika arasında əməkdaşlığın əsas istiqamətləri, Meksikanın dünyadakı yeri və rolu, gələcək üçün planlaşdırılan "tələbə mübadilə proqramı" və digər məsələləri əhatə etmişdir. Təqdimatdan sonra tələbələrin sualları cavablandırılmışdır.

On April 25, the Ambassador Extraordinary and Plenipotentiary of the United States of Mexico to Azerbaijan Maria Victoria Romero Caballero held a seminar on "Mexico & Azerbaijan: Creating a partnership for the future" at Khazar University.

Head of the Department of Political Sciences and Philosophy of the University Dr.Orkhan Valiyev, instructor of the Department Baba Bayramov, deputy dean of the School of Humanities, Education and Social Sciences Tarlan Orujova and students attended the seminar.

The seminar covered the main directions of cooperation between Azerbaijan and Mexico, the place and role of Mexico in the world, the "student exchange program" planned for the future and other issues. After the presentation, students' questions were answered.








# PROFESSOR, AKADEMİK HAMLET İSAXANLI BEYNƏLXALQ KONFRANSDA

# PROFESSOR, ACADEMICIAN HAMLET ISAKHANLI AT THE INTERNATIONAL CONFERENCE

Aprelin 26-da Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) Elm və Təhsil Nazirliyinin Riyaziyyat və Mexanika İnstitutunun təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Riyaziyyat və mexanikanın müasir problemləri" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransın açılış iclasında AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru Misir Mərdanov, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı, həmçinin bir neçə xarici qonaq çıxış ediblər. Çıxışlarda Heydər Əliyevin Azərbaycan elminə və təhsilinə verdiyi töhfələrdən, elmin inkişafı üçün həyata keçirdiyi islahatlardan bəhs olunub.

Beynəlxalq konfransda riyaziyyatın aktual problemləri müzakirə edilib, tədbirdə iştirak edən dünyanın müxtəlif ölkələrinin riyaziyyatçı alimləri arasında elmi əlaqələrin genişlənməsi dəstəklənib.

On April 26, an international conference dedicated to the 100th anniversary of national leader Heydar Aliyev was held at the Azerbaijan National Academy of Sciences (ANAS) under the organization of the Institute of Mathematics and Mechanics of the Ministry of Science and Education on "Modern problems of mathematics and mechanics".

Academician Isa Habibbayli, President of ANAS, Misir Mardanov, Director General of the Institute of Mathematics and Mechanics, Professor academician Hamlet Isakhanli, founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, as well as several foreign guests spoke at the opening meeting of the conference. The contributions of Heydar Aliyev to the science and education of Azerbaijan and the reforms implemented for the development of science were discussed in the speeches.

Actual problems of mathematics were discussed at the International Conference, and the expansion of scientific ties between mathematicians from different countries of the world participating in the event was supported.

# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN 77-Cİ MƏŞĞƏLƏSİ

# THE 77TH SESSION OF THE ASSEMBLY OF SCIENCE AND ART



*Firdovsiyyə Əhmədovaya*
*Firdovsiyya Ahmadova*

*Hamlet İsaxanlı*
*Hamlet Isakhanli*

Aprelin 27-də Xəzər Universitetinin Mərkəz Kampusunda tarixçi və ədəbiyyatşünas alim və mütəxəssislərin, politoloqların iştirakı ilə ənənəvi "Elm və Sənət Məclisi"nin "Nəriman Nərimanov: siyasət və şəxsiyyət" mövzusunda 77-ci məşğələsi keçirildi.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı mövzuya giriş nitqi ilə çıxış edərək, sözü məruzəçiyə – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının mü-

On April 27, the 77th session of the traditional Assembly of Science and Art on the topic "Nariman Narimanov: politics and personality" was held at the Downtown Campus of Khazar University with the participation of historians and literary scholars, specialists, and political scientists.

The founder of the University, chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli made an introductory speech to the topic and gave the floor to the speaker - the head of the History Department of the Academy of Public Administration under the President of the Republic



*Orxan Vəliyev*
*Orkhan Valiyev*



*İradə Musayeva*
*Irada Musayeva*



*Şahin Fazil*
*Shahin Fazil*

diri, professor Firdovsiyyə Əhmədovaya verdi.

Tanınmış tarixçi alimin geniş və əhatəli məruzəsindən sonra sual-cavab sessiyası və müzakirələrdə Şahin Fazil (AMEA Tarix İnstitutu), Solmaz Tohidi, Fərda Əsədov (AMEA Şərqşünaslıq İnstitutu), İradə Musayeva ("İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi), "Təzadlar" qəzetinin baş redaktor müavini Elçin Məmmədli, Orxan Vəliyev (Xəzər Universiteti), Elmira Muradəliyeva (BDU) və digərləri çıxış edərək, fikirlərini bildirdilər.

Sonda H. İsaxanlı dərin məzmunlu məruzəyə görə professor Firdovsiyyə Əhmədovaya və maraqlı müzakirəyə görə iştirakçılara təşəkkürünü bildirdi.

of Azerbaijan, professor Firdovsiya Ahmadova.

After an extensive and comprehensive report by a well-known historian scientist, in the question-and-answer session and discussions, Shahin Fazil (Institute of History of ANAS), Solmaz Tohidi, Farda Asadov (Institute of Oriental Studies of ANAS), Irada Musayeva (Administration of State Historical and Architectural Reserve of Icheri Sheher), Elchin Mammadli, editor- in - chief of the newspaper "Təzadlar"("Contrasts") Orkhan Valiyev ( Khazar University), Elmira Muradaliyeva( BSU) and others spoke and expressed their opinions.

In the end, H. Isakhanli thanked Professor Firdovsiyya Ahmadova for the insightful report and the participants for the interesting discussion.









*Ceyhun Məmmədov*
*Jeyhun Mammadov*

# PİCASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "ARXEOLOJİ İRSİN QORUNMASININ TƏŞKİLİ" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON " ORGANIZATION OF ARCHAEOLOGICAL HERITAGE PROTECTION" WITHIN PICASP PROJECT

Xəzər Universitetində PICASP layihəsi çərçivəsində İqtisadiyyat və menecment fakültəsi və İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə MIRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən 2023-cü il aprelin 27-də bakalavr pilləsi üzrə təhsil alan turizm ixtisası tələbələrinin və müəllim heyətinin iştirakı ilə "Arxeoloji irsin qorunmasının təşkili" mövzusunda seminar təşkil edilmişdir.

Seminarı Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov açaraq, PICASP layihəsi, MIRAS ilə əməkdaşlıq və turizmin dayanıqlı inkişafda rolu barədə ətraflı məlumat vermişdir.

Sonra Layihənin milli tərəfdaşı qismində MIRAS İctimai Birliyinin inzibati rəhbəri, tarix üzrə fəlsəfə doktoru Fariz Xəlilli məruzə ilə çıxış etmişdir.

Seminar arxeoloji tədqiqatların aparılması, tapılan daşınan və daşınmaz arxeooji tapıntıların qorunması və saxlanması, ölkə daxilində və xaricdə təşkil olunan arxeoloji sərgilər, arxeoloji muzeyləşdirmə, ölçü işlərinin aparılması, konservasiya məsələləri, beynəlxalq təcrübə və s. mövzuları əhatə etmişdir.

Seminarda, həmçinin, "Orta Əsr Ağsu Şəhəri" arxeoloji turizm kompleksinin nümunəsində arxeoloji irsin qorunmasının müxtəlif aspektləri müzakirə edilmiş, arxeoloji irsin qorunması istiqamətində MIRAS tərəfindən həyata keçirilən maarifləndirici

On April, 27, a seminar on "Organization of Archaeological Heritage Protection" was organized within the framework of the PICASP project at Khazar University by MIRAS Public Union for the Study of Cultural Heritage and co-organized by the School of Economics and Management and the Development Center with the participation of undergraduate tourism students and faculty.

The seminar was opened by Dr. Jeyhun Mammadov, dean of the School of Economics and Management of Khazar University, who gave detailed information about the PICASP project, cooperation with MIRAS, and the role of tourism in sustainable development.

Then, as the national partner of the Project, the administrative head of MIRAS Public Union, Doctor of Philosophy in History, Fariz Khalilli, delivered a speech.

The seminar covered archaeological research, protection and storage of movable and immovable archaeological finds, archaeological exhibitions organized in the country and abroad, archaeological museumization, surveying, conservation issues, international experience and other topics.

The seminar also discussed various aspects of the protection of the archaeological heritage on the example of the "Medieval Aghsu City" archaeological tourism complex, and informed about the educational projects (tours for getting acquainted, archeology



*Fariz Xəlilli*
*Fariz Khalilli*



layihələr (tanışlıq turları, arxeologiya düşərgələri, məktəblilər üçün yay arxeoməktəbi və s.) barədə məlumat verilmişdir. Seminar hibrid formatda təşkil olunmuşdur.

MIRAS-PICASP seminarlarının məqsədi Xəzər bölgəsində mədəni irs, arxeologiya, muzeylər, turizm sahəsində universitet-müəssisə əməkdaşlığına zəmin hazırlamaqdır. Layihənin əsas məqsədi yeni öyrənmə vasitəsi olan açıq ödənişsiz onlayn kursların (MOOCs) tətbiqi ilə nəzəriyyə və təcrübəni birləşdirən pilot kurslar əsasında kiçik və orta biznes sahəsində müəllimlərin kompetensiyalarının artırılması, yeni metodologiya və tədris vasitələrinin təqdim olunması, mədəni irsin qorunması sahəsində kadr hazırlığı səviyyəsinin yüksəldilməsi, xüsusilə ali təhsil sahəsində potensialın gücləndirilməsindən ibarətdir.

camps, summer archeology school for schoolchildren et c.) implemented by MIRAS in the direction of the protection of the archaeological heritage. The seminar was organized in a hybrid format.

The aim of the HERITAGE-PICASP seminars is to prepare the ground for university-institution cooperation in the field of cultural heritage, archeology, museums, and tourism in the Caspian region. The main goal of the project is to increase the competencies of teachers in the field of small and medium business based on pilot courses that combine theory and practice with the application of a new learning tool, free open online courses (MOOCs), to introduce new methodologies and teaching tools, to raise the level of personnel training in the field of cultural heritage protection, especially consists of strengthening the potential in the field of higher education.





*Elza Səmədli*



*Elza Samadli*

## "AZƏRBAYCAN MƏKTƏBİ" JURNALININ TƏQDİMATI

Aprelin 28-də Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin təşkilatçılığı ilə universitetdə təsisçisi Elm və Təhsil Nazirliyi olan "Azərbaycan məktəbi" elmi-nəzəri-pedaqoji jurnalının təqdimatı oldu. Tədbirdə jurnalın rəhbərliyi və universitet əməkdaşları iştirak edirdilər.

Tədbiri giriş sözü ilə Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, "Azərbaycan məktəbi" jurnalının redaksiya heyətinin üzvü, dosent Elza Səmədli açaraq, qonaqları salamladı, jurnal ilə əməkdaşlığı haqqında danışdı.

Jurnalın baş redaktoru Arzu Soltan jurnalın yaranması, fəaliyyəti haqqında məlumat verdi. Qeyd etdi ki, jurnal 95 ildən artıq müddətdə təhsil sisteminin yenilənməsində, təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsində, mütərəqqi tədris metod və formalarının təbliğində, qabaqcıl təcrübənin öyrənilib yayılmasında, görkəmli alimlərin fikir və ideyalarının cəmiyyətə təqdim olunmasında, elmi, pedaqoji təfəkkürün formalaşmasında əhəmiyyətli rol oynayıb və bu gün də jurnalda elmi ictimaiyyət nümayəndələrinin, pedaqoqların, psixoloqların təhsilin aktual problemləri, fəlsəfəsi, tarixi ilə bağlı məqalələri dərc olunur.

Baş redaktorun müavini Nəsrəddin Musayev çıxışında " jurnala əlavə kimi müxtəlif illərdə 8 adda metodik məcmuənin çap edildiyini və onlardan bəzilərinin bu gün də dərc olunduğunu bildirdi. O, jurnalın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər sırasına daxil edildiyi haqqında da məlumat verdi və sualları cavablandırdı.

Redaksiya tərəfindən Kitabxana İnformasiya Mərkəzinə jurnallar hədiyyə olundu.

## PRESENTATION OF "AZERBAIJAN JOURNAL OF EDUCATIONAL STUDIES"

On April 28, the scientific-theoretical pedagogical journal "Azerbaijan Journal of Educational Studies ", founded by the Ministry of Science and Education, was organized by the Khazar University Library Information Center. The journal's management and university staff participated in the event.

Opening the event, dean of the School of Humanities, Education and Social Sciences, member of the editorial board of the journal "Azerbaijan Journal of Educational Studies", associate professor Elza Samadli greeted the guests and spoke about her cooperation with the journal.

The editor-in-chief of the journal, Arzu Soltan, gave information about the establishment and activities of the journal. She noted that for more than 95 years, the journal has played an important role in the renewal of the education system, in the improvement of the quality of educational work, in the promotion of progressive teaching methods and forms, in the study and dissemination of advanced practice, in presenting the ideas of outstanding scientists to the society, in the formation of scientific and pedagogical thinking, and even today, the journal publishes articles by representatives of the scientific community, pedagogues, and psychologists on current problems, philosophy, and history of education.

Deputy Editor-in-Chief Nasreddin Musayev stated in his speech that 8 methodical collections were published as supplements to the journal in different years and some of them are still published today. He also informed that the journal was included in the list of publications recommended for publication of the main results of dissertations by the decision of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan and answered questions.

The editorial office presented journals to the Library Information Center.





*Arzu Soltan*





*Nəsrəddin Musayev  Nasreddin Musayev*



# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI ERASMUS+ PICASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VARŞAVA UNİVERSİTETİNDƏ

# KHAZAR UNIVERSITY STAFF IN WORKSHOP AT WARSAW UNIVERSITY WITHIN ERASMUS+ PICASP PROJECT IN POLAND.

Aprelin 17-21-də Xəzər Universitetinin əməkdaşları ERASMUS+ PICASP layihəsi çərçivəsində Polşanın Varşava Universitetində olmuş, "Təhsil və biznes strategiyalarında mədəni irs" adlı seminarda iştirak etmişlər.



Tədbirdə Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr.Ceyhun Məmmədov, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan müa-

On April 17-21, Khazar University staff visited Warsaw University in Poland within the framework of ERASMUS+ PICASP project and participated in "Cultural Heritage in Educational and Business Strategies" workshop.

Khazar University was represented by Dr. Jeyhun Mammadov, dean of School of Economics and Management, Dr. Mahammad Eldarov, vice-dean of Graduate School of Science, Art and Technology, Dr. Bahadir Baysal, coordinator of Department

vini Dr.Məhəmməd Eldarov, İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr.Bahadır Baysal, İnkişaf Ofisinin Layihə meneceri Səlimə Əhmədova, Tarix və arxeologiya departamentinin müəllimləri Dr. Bayram Quliyev, Kəmalə Mustafayeva və Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova ilə təmsil olunmuşdur.

PICASP layihəsinin (Xəzər regionunun inkişafını dəstəkləmək məqsədilə universitet-sənaye əməkdaşlığını həyata keçirən təcrübə müəssisələri pilot kursları) əsas məqsədləri Təcrübə Müəssisəsi ilə yeni tədris metodları hazırlamaq, Sahibkarlıq və KOM-ların idarə edilməsi üzrə kurslar təşkil etmək, Aİ tərəfdaşları ilə təcrübə mübadiləsini artırmaq və maraqlı tərəflərin kurikulumların hazırlanmasında və məzunların məşğulluğunda iştirakını təmin etməkdir.

Seminar mədəni irs sahəsindəki təcrübə və problemlərin müzakirəsinə həsr olunmuşdu: arxeoloji irsin araşdırılması və sənədləşdirilməsi metodları; qanunsuz dövriyyəyə qarşı mübarizə və mədəni irsin qorunması; II Dünya müharibəsindən sonra Varşavanın bərpası; Varşava Universiteti Muzeyinin tarixi; Bolqarıstan və Rumıniyada irsin idarə olunması, turizm problemləri və onların həlli yolları; Polşada kommersiya arxeologiyası; əsas problemlər və inkişaf perspektivləri; mədəni irs sahəsində yetkinlərin təhsil.

İdarəetmə görüşündə Dr. Ceyhun Məmmədov Xəzər Universitetində layihə fəaliyyətlərinin həyata keçirilməsi və qarşıya qoyulan məqsədlərin reallaşdırılması haqqında, Səlimə Əhmədova layihənin idarə olunması məsələləri ilə bağlı ətraflı məlumat verdilər.

Görüş cari nəticələrin, ehtiyacların, gözləntilərin və gələcək planların müzakirəsi ilə başa çatdı.

of Economics and Management, Mrs. Salima Ahmadova, project manager at Development Office, Dr. Bayram Guliyev and Mrs. Kamala Mustafayeva, instructors at Department of History and Archaeology, Mrs. Sabina Allahveranova, manager of Career Center.

The main objectives of the PICASP project (Pilot courses in Practice Enterprise to implement the University-Enterprise Cooperation for the development of Caspian Area) are to develop new teaching methodologies with Practice Enterprise, to develop courses in Entrepreneurship and SME Management, to enhance the exchange of best practices with EU partners, and to enforce stakeholders' involvement in curriculum development and the placement of graduates.

The workshop was dedicated to discussion of practices and challenges in cultural heritage: methods of researching and documenting of archaeological heritage; the fight against illicit trafficking and protection of cultural heritage; rebuilding Warsaw after WW II; history of the University of Warsaw Museum; problems and solutions for heritage management and tourism in Bulgaria and Romania; commercial archaeology in Poland; main problems and development prospects; and adult education in the field of cultural heritage. Furthermore, Khazar University staff participated in field activities on the post-war reconstruction of the historical substance of Warsaw and the adaptation of old post-industrial and socialist buildings for cultural and business purpose.

The management meeting was attended by Dr. Jeyhun Mammadov and Mrs. Salima Ahmadova. Dr. Mammadov made a presentation on the implementation of project activities and realization of objectives at Khazar University. Meanwhile, Mrs. Ahmadova provided detailed information on project management issues. The meeting ended with discussion of current results, needs, expectations, and future plans.

# "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ERASMUS+ TƏLƏBƏ
# KHAZAR UNIVERSITY STUDENTS IN ERASMUS+ STUDENT



## PROFESSİONAL KARYERA YOLUNDA FAYDALI TƏCRÜBƏ

## RICH EXPERIENCE IN PROFESSIONAL CAREER PATH

Hazırda Xəzər Universitetində magistr pilləsində Klinik psixologiya ixtisası üzrə təhsil alıram. Psixikadakı mədəni müxtəliflikləri incələmək, dissertasiyamda bu mövzunu araşdırmaq məqsədilə xaricdə təhsil proqramlarını araşdırmağa başladım. Beləliklə də, Erasmus+ mübadilə proqramı ilə tanış oldum.

Xarici bir ölkədə bir və ya iki semestrlik təhsil imkanı yaradan proqram dünyanın bir çox ölkəsindən olan tələbələri bir yerə toplayaraq, onlara yalnız təhsil baxımından yeni biliklər verməklə qalmır, eyni zamanda, gənclərə müxtəlif mədəniyyətlərlə tanış olmaları üçün şərait yaradır. Tələbələr üçün ayrılan təqaüd də buna imkan verir.

Türkiyənin Sabancı Universitetində bir semestrlik tələbə kimi deyə bilərəm ki, orada hər imkanın məhz sənin üçün olduğunu hiss edirsən, çünki mərkəzdə sənsən! 5 ay müddətində aldığım dərslərdən əlavə, Psixologiya laboratoriyasında təcrübə keçdim, müəllimim TUBITAK-a layihə yazmağımı təşviq etdi və mən hazırladım.

Azərbaycan və Türkiyə universitet tələbələrində akademik göstərici (GPA), təşviş səviyyəsi və yaşam məmnuniyyəti arasındakı əlaqənin incələnməsi məqsədilə tədqiqat apardım, Psixologiya laboratoriyasında elektroensefaloqrafiya aparatı ilə tədqiqatların keçirilməsinə yardımçı oldum.

Ekskursiyalar vasitəsilə Türkiyənin müxtəlif bölgələrini gəzdim, müxtəlif ölkələrdən bir çox dostlar qazandım.

**İlahə Məmmədova**

Currently, I am studying Clinical Psychology at the master's degree at Khazar University. I began researching study abroad programs in order to delve into cultural differences in psychology and explore this topic in my dissertation. That's how I got acquainted with the Erasmus+ exchange program.

The program, which provides an opportunity for one or two semesters of study in a foreign country, brings together students from many countries of the world and not only gives them new knowledge in terms of education, but also creates conditions for young people to get acquainted with different cultures. The scholarship allocated for students also makes it possible.

As a one semester student at Sabanci University in Türkiye, I can say that you feel that every opportunity there is just for you, because you are the center of attention! In addition to the classes I attended for 5 months, I did an internship in the Psychology laboratory, my teacher encouraged me to write a project for TUBITAK and I prepared it.

I conducted research in order to investigate the relationship between academic performance (GPA), anxiety level and life satisfaction in university students of Azerbaijan and Türkiye, I assisted in conducting research with electroencephalography machine in the Psychology Laboratory. Through excursions, I travelled to different regions of Türkiye and made many friends from different countries.

**İlaha Mammadova**

# MÜBADİLƏ PROQRAMINDA
# EXCHANGE PROGRAM



## UNİVERSİTET HƏYATIMIN UNUDULMAZ ANLARI

## THE MOST UNFORGETTABLE MOMENTS OF MY UNIVERSITY LIFE

Mən İqtisadiyyat və menecment fakültəsinin maliyyə ixtisası üzrə 4 cü kurs tələbəsiyəm.

Erasmus+ Tələbə Mübadilə Proqramı çərçivəsində Türkiyənin Manisa Celal Bayar Universitetində bu ilin fevral-mart aylarında iki aylıq təcrübə keçmişəm. Bu proqram bilik və bacarıqları tətbiq etmək və təcrübə qazanmaq üçün əla imkandır.

Mən Celal Bayar Universitetində iki fərqli bölümdə təcrübədə oldum. Əvvəlcə Strateji Birimdə, sonra isə İşlətmə fakültəsində. Hər birində fərqli təcrübə və biliklərə yiyələndim, mükəmməl insanlarla birlikdə çalışmaq imkanı əldə etdim. Universitetə mübadilə proqramı ilə Əlcəzair, Kosova, Keniya, İordaniya və s. ölkələrdən tələbələr gəlir. Mən də bu tələbələrlə tanış oldum, onlarla birlikdə səyahətə çıxdım.

Bundan əlavə, Erasmus ofisi və könüllü tələbələr tərəfindən şəhər turları təşkil edilir və müxtəlif tədbirlər həyata keçirilir

Türkiyədə tələbələrin yeri xüsusidir, yəni siz tələbə kartınızı göstərməklə bir çox yerdə endirim əldə edə bilərsiniz.

Deyə bilərəm ki, bu proqam sayəsində mən universitet həyatımın ən unudulmaz anlarını yaşadım. Orda qaldığım müddət ərzində Türkiyənin ən gözəl şəhərlərindən olan İstanbul və İzmiri gəzdim və bu yerlər barədə çoxlu xatirələrim var.

**Sima Rəhimova**

I am the 4th year student of the School of Economics and Management, majoring in finance.

Within the framework of the Erasmus+ Student Exchange Program, I had a two-month internship at Türkiye's Manisa Celal Bayar University in February-March of this year. This program is an excellent opportunity to apply knowledge and skills and gain experience. I had an internship at Celal Bayar University in two different departments. First at the Strategy Unit, and then at the Faculty of Business Administration. In each of them I acquired different experiences and knowledge, I had the opportunity to work together with excellent people. Students from Algeria, Kosovo, Kenya, Jordan and other countries come to the university through the exchange program. I also met these students and went on a trip with them.

In addition, city tours and various events are organized by the Erasmus office and student volunteers.

Students have a special place in Türkiye, which means you can get discounts on many things by showing your student card.

I can say that thanks to this program, I experienced the most unforgettable moments of my university life. During my stay there, I visited Istanbul and Izmir, some of the most beautiful cities in Türkiye, and I have a lot of memories.

**Sima Rahimova**

# WEST ATTICA UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

# REPRESENTATIVES OF WEST ATTICA UNIVERSITY AT KHAZAR UNIVERSITY



*Turan Əlizadə, Karellas Georgios, Fatimə Vəliyeva, Carmen Medrea*
*Turan Alizadeh, Karellas Georgios, Fatima Valiyeva, Carmen Medrea*

Aprelin 24-28-də Yunanıstanın Afina şəhərində yerləşən West Attica Universitetinin professorları Karellas Georgios və Carmen Medrea Erasmus+ İşçi Heyətinin Mübadilə Proqramı (Erasmus+ KA107\171) çərçivəsində Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamenti və Beynəlxalq əlaqələr ofisi tərəfindən qəbul edildi.

Proqrama uyğun olaraq universitetin Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli qonaqları mərkəzin fəaliyyəti ilə tanış etdi. Beynəlxalq əlaqələr ofisinin koordinatorları Fatimə Vəliyeva və Turan Əlizadə onlara Nailəxanım Mədəniyyət Mərkəzində görkəmli pedaqoq Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verdi.

Sonra qonaqlar universitetin mühazirə zalları və laboratoriyaların fəaliyyəti ilə tanış oldular.

Qonaqlar Coğrafiya və ətraf mühit departamentində olmuş, departament rəhbəri Rövşən Abbasov departamentin fəaliyyət istiqamətləri haqqında məlumat vermiş və əməkdaşlıq istiqamətində danışıqlar aparmışdır. Beynəlxalq əlaqələr ofisi ilə də tanış olan nümayəndə heyətinə ofisin koordinatorları ofis və onun fəaliyyəti haqqında məlumat verdilər.

Proqramın sonunda nümayəndə heyətinə sertifikat və hədiyyə təqdim edildi.

On April 24-28, professors Karellas Georgios and Carmen Medrea of West Attica University, Athens, Greece, visited Khazar University's Geography and Environment Department and International Relations Office within the Erasmus+ Staff Exchange Program (Erasmus+ KA107\171).

According to the program, Aytac Misgarli, the deputy director of the university's Library Information Center, introduced the guests to the activities of the center. Fatima Valiyeva and Turan Alizadeh, coordinators of the International Relations Office, gave them detailed information about the exhibits reflecting the life and activities of the outstanding educator Nailekhanim Isayeva at the Nailekhanim Cultural Center. Then the guests got acquainted with the activities of the university's lecture halls and laboratories.

The guests visited the Department of Geography and Environment and the head of the department, Rovshan Abbasov, informed about the activities of the department and held negotiations on cooperation. The delegation got acquainted with the International Relations Office and the coordinators gave information about the office and its activities.

At the end of the program, a certificate and a gift were presented to the delegation.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ TÜRKİYƏ TELEKANALLARINDA

## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD ON TURKISH TV CHANNELS

2023-cü il martın 31-də Qubadakı Soyqırım Memorial Kompleksi önündən azərbaycanlıların soyqırımı haqqında *TRT Haber* kanalı ilə *AZTV*-nin müştərək yayımı həyata keçirilmişdir.

Tarix və Arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu həm ortaq proqramın, həm də *TRT Avaz*-ın "*Avrasiya Gündəmi*" verilişinin canlı yayım qonağı olaraq, 1918-ci ildə bütün Cənubi Qafqaz və Anadoluda tüğyan edən erməni terroru haqqında tamaşaçılara ətraflı məlumat vermişdir.

On March 31, 2023, a joint broadcast of *TRT Haber* channel and *AZTV* on the genocide of Azerbaijanis was carried out in front of the Genocide Memorial Complex in Guba.

Dr. Telman Nusratoghlu, head of the Department of History and Archeology, as a live broadcast guest of both the joint program and the program "*Eurasia agenda*" of *TRT Avaz*, informed the audience about the armenian terror raging throughout the South Caucasus and Anadolu in 1918.

***https://www.facebook.com/trtbakutemsilciligi/videos/1037456384307495/?extid=CL-UNK-UNK-UNK-AN_GK0T-GK1C&mibextid=1YhcI9R***

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ "TÜRKİYE" QƏZETİNDƏ

## ARTICLE BY HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD IN "TÜRKIYE" NEWSPAPER

Xəzər Universiteti Tarix və arxeoligiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlunun "Türk dünyasının geleceği ve 14 Mayıs seçimleri" adlı analitik məqaləsi Türkiyənin aparıcı qəzetlərindən olan "*Türkiye*" qəzetinin 2 aprel 2023-cü il tarixli nömrəsində dərc olunmuşdur.

An analytical article by the head of Khazar University History and Archeology Department Dr.Telman Nusratoghlu entitled "The Future of the Turkish World and May 14 Elections" was published in the April 2, 2023 issue of Türkiye's leading newspaper "*Türkiye*".

***https://www.turkiyegazetesi.com.tr/kose-yazilari/genis-aci-fikir-ve-tartisma/turk-dunyasinin-gelecegi-ve-14-mayis-secimleri-637547***

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏLSİ "YENİ ŞAFAK" QƏZETİNDƏ

## THE ARTICLE BY POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD IN THE NEWSPAPER "YENI ŞAFAK"

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin 14 May prezident seçkilərinə dair "Seçim 2023: Kimin Türkiyesi?" adlı məqaləsi "*Yeni Şafak*" (Türkiyə) qəzetinin 22 mart 2023-cü il tarixli nömrəsində dərc edilmişdir.

The article of Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy, Khazar University, entitled "Election 2023: Whose Turkey?" on May 14 presidential elections was published in the March 22, 2023 issue of *Yeni Shfak* (Türkiye) newspaper.



# DÜNYANIN ƏN XOŞBƏXT ÖLKƏSİ YENƏ FİNLANDİYADIR

Finlandiya dalbadal altıncı dəfə dünyanın ən xoşbəxt ölkəsi kimi tanınıb. Xoşbəxt ölkələrin ilk üçlüyü ötən il olduğu kimi şimal ölkələridir: Danimarka ikinci, İslandiya isə üçüncü sıradadır.

Dünya Xoşbəxtlik Hesabatına əsasən Litva ilk 20-likdə olan yeganə ölkədir ki, 2017-ci ildən bəri 30 pillə irəliləyib. Müharibədən əziyyət çəkən Əfqanıstan və Livan tədqiqatda ən bədbəxt iki ölkə olaraq qalır. Hazırda müharibə şəraitində olan Rusiya 70-ci, Ukrayna isə 92-ci sıradadır.

Qeyd edək ki, Dünya Xoşbəxtlik Hesabatının araşdırmasında 6 amil əsas götürülür: sosial dəstək, gəlir, sağlamlıq, azadlıq, səxavət və korrupsiyanın olmaması. Hesabat müəllifləri, hökumətlər bu təhlildən getdikcə xoşbəxtliyə doğru siyasətləri istiqamətləndirmək üçün istifadə edirlər.

*https://moderator.az/az/dunya/614148/dunyanin-en-xosbext-lkesi-yene-finlandiyadir/*

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynın iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi
* Memarlıq

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi